# İSLAM VƏ KARMA FƏLSƏFƏSİ

Yalnız Quranı
rəhbər tutanlar batil olan inanclardan tamamilə
uzaqlaşar, dünyada və axirətdə sonsuza qədər
davam edəcək gözəl bir həyata sahib
olmağı ümid edə bilərlər.

HARUN YƏHYA

# MÜNDƏRİCAT

Giriş

Karma inancı nədir?

Karma inancına görə reinkarnasiya

Karma inancına görə axirət

Karma inancında dünya həyatı

Karma inancına və Qurana görə tale anlayışı

Həqiqi hüzur və xoşbəxtliyin qaynağı Allaha və taleyə təslim olmaqdır

Karma ədaləti təmin edə bilməz, həqiqi ədalət sahibi olan Allahdır

Allahın sonuncu və heç dəyişməyən vəhyi: Quran

Nəticə

Əlavə 1: Quran möcüzələri

Əlavə 2: Təkamül yalanı

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini

səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# GİRİŞ

**Yalnız Quranı rəhbər tutanlar batil olan inanclardan tamamilə uzaqlaşar, dünyada və axirətdə sonsuza qədər davam edəcək gözəl bir həyata sahib olmağı ümid edə bilərlər.**

Dövrümüzdə insanların böyük bir hissəsi dünya üzərində yaşanan xaosdan, qarışıqlıqdan, müharibələrdən, çətinliklərdən, zalımlıqlardan, çəkişmələrdən, səmimiyyətsizlikdən, eqoistlikdən və yalançılıqdan uzaqlaşmağın, hüzur, xoşbəxtlik və sülh içində bir həyat qurmağın yollarını axtarır.

Bu məqsədlə axtarış aparan bəzi kəslər həsrətində olduqları hüzur və xoşbəxtliyi hinduizm və buddizm kimi dinlərdə tapa biləcəklərini zənn edirlər. Şərq dinlərinin sirli və mistik havası, meditasiya kimi üsulları və bu dinə mənsub olan şəxslərin rəftarlarındakı, geyimlərindəki, danışıqlarındakı və ibadət formalarındakı fərqlilik bir çox insanın bu dinlərdən təsirlənmələrinə səbəb olur.

Ancaq hinduizm və buddizm kimi dünyanın bilinən ən qədim dinləri olaraq qəbul edilən inanclar hər nə qədər bəzi gözəl əxlaq mesajları versələr də haqq din deyildirlər. Yəqin ki, zaman içində geniş şəkildə qəbul edildikləri cəmiyyətlərin ənənə və adətləri ilə qarışmış və bəzi insanların da məqsədli olaraq əlavə etdikləri xurafatlar və səhv inanclarla pozularaq dövrümüzdəki batil formanı almışlar. Bu səbəblə, bu dinlərin ağıl və məntiqlə ziddiyyət təşkil edən bir çox düşüncə və tətbiqləri var.

Son zamanlarda ölkəmizdə də gündəmə gələn Karma inancı bu batil dinlərin əhəmiyyətli bir xüsusiyyətidir. Karma fəlsəfəsi insanları bəzi müsbət əxlaqi xüsusiyyətlərə həvəsləndirir, ancaq bununla yanaşı bir çox azğın və batil inancı da özündə ehtiva edir. Karmanın əsasını təşkil edən bu batil inancların insanlar üçün qurtuluş yolu olması, insanlara mütləq hüzur və sülh gətirməsi isə qətiyyən mümkün deyil. Tam əksinə bu inanclar insanı daha qarışıq bir ruh halına, yanlış bir dünyagörüşünə və səhv tətbiqlərə yönəldir. Qarşınızdakı bu kitabda bu cür səhv tətbiq və fikirləri nəzərdən keçirəcəyik.

Karma inancının səhv istiqamətlərinə keçməzdən əvvəl bunu xatırlatmaqda fayda vardır: Dünya üzərində həqiqi xoşbəxtliyi və hüzuru tapmağın yolu kainatın tək hakimi olan Rəbbimizin bütün insanlar üçün seçib bəyəndiyi İslam dini və İslam dininin qaynağı olan Qurandır. Quran Allahın bildirdiyi kimi insanları qaranlıqlardan aydınlığa çıxmasına və insanların qurtuluşuna vəsilə ola biləcək yeganə Kitabdır: Allah bu həqiqəti Quran ayələrində belə bildirmişdir:

**Ey Kitab əhli! Artıq sizə Kitabdan gizlətdiyiniz şeylərin bir çoxunu bəyan edən və bir çoxunun da üstündən keçən Elçimiz gəlmişdir. Artıq sizə Allahdan bir nur (Məhəmməd) və açıq-aydın bir Kitab gəldi. Allah, Onun rizasını arayan şəxsləri bu Kitabla əmin-amanlıq yollarına yönəldir, onları Öz izni ilə zülmətlərdən nura çıxarır və düz yola yönəldir (Maidə surəsi, 15-16)**

**Əlif. Ləm. Ra. Bu, insanları öz Rəbbinin izni ilə qaranlıqdan nura–Qüdrətli, Tərifəlayiq Allahın yoluna çıxartmaq üçün sənə nazil etdiyimiz bir Kitabdır. (İbrahim surəsi, 1)**

Bu kitabda Karma fəlsəfəsinin Quran ilə uyğun olan gözəl əxlaqa aid bəzi xüsusiyyətləri ilə yanaşı Qurana, insan ağlına və vicdanına zidd olan azğın tərəfləri açıqlanacaq.

Ancaq ən başda bunu xatırlatmalıyıq ki, Karma inancı heç bir dəlilə əsaslanmayan, Allahın vəhy etdiyi müqəddəs bir kitabı olmayan, yalnız insanların uydurduğu fikirlərdən ibarət olan fəlsəfədir. Belə bir fəlsəfəni orta məktəb şagirdi belə rahatlıqla meydana gətirə bilər. Hətta bu və buna bənzər çox sayda fəlsəfə ortaya çıxarda bilər. Üstəlik, belə bir fəlsəfəni ortaya çıxartmaq üçün hər hansı məlumata və zamana da ehtiyac yoxdur, yarım saat belə bu cür "əsassız inanclar" toplusunu yaratmaq üçün kifayətdir. Çünki Karma fəlsəfəsində hər hansı bir ağıl iddiası yoxdur. Bu vəziyyətdə dəlildən məhrum, üstəlik məntiqdən kənar bir fəlsəfənin tələblərinə riayət etmək, onun xəyali qaydalarını həyata keçirməyə çalışmaq nə dərəcə məntiqlidir? Məhz bu kitabda Karma və buna bənzər inancların tələblərinə riayət etməyin və onlara əsasən yaşamağın məntiqsizliyini dəlilləriylə nəzərdən keçirəcəyik.

# KARMA İNANCI NƏDİR?

Karma inancı hinduizm, buddizm və caynizm kimi batil Şərq dinlərində çox əhəmiyyətli yer tutur. Sanskrit dilinə aid olan karma sözü "hərəkət" mənasını verir. Hind dinlərində karma anlayışı, "səbəb-nəticə qanunu" kimi tanınır. Karma inancını müdafiə edənlərə görə bir insan əvvəlki həyatında nə edibsə, gələcək həyatında onun qarşılığını alacaq. Yaxşı əməllərinin qarşılığı yaxşı, pis əməllərinin qarşılığı isə pis olacaq. Bu düşüncəyə görə, insanın bugünkü vəziyyəti də əvvəlki həyatının bir nəticəsidir.

Karma inancında "əvvəlki həyat" o insanın indiki həyatından əvvəlki həyatı, "gələcək həyat" isə ölümündən sonra başlayacağı iddia edilən həyatıdır. Çünki karmanın əsasında insanın ölümdən sonra dünyaya yenidən başqa bir bədənlə gəlməsi və bu ölüb-dirilmənin müntəzəm olaraq davam etməsi mənasını verən reinkarnasiya inancı var. Buna görə də, karmaya inanan insan öldükdən sonra başlayan yeni həyatındakı müvəffəqiyyətlərinin, ictimai mövqeyinin və ya həyat tərzinin əvvəlki həyatındakı davranışlarına və əxlaqına bağlı olduğuna inanır. Məsələn, bu gün zəngin və ya müvəffəqiyyətli olan bir adamın, əvvəlki həyatında yaxşı bir insan olduğu üçün, bu həyatında zənginliklə mükafatlandırıldığı düşünülür. Eyni şəkildə kasıb, şikəst ya da müvəffəqiyyətsiz olan bir adamın əvvəlki həyatında pisliklər etdiyi və bunun qarşılığını indiki həyatında bu şəkildə aldığı iddia edilir. Hətta bu batil iddiaya görə insan etdiyi pisliyə görə bir sonrakı həyatında bitki və ya heyvan görünüşündə də ola bilər. Reinkarnasiyanın batil bir inanc olduğu, kitabın sonrakı hissələrində ətraflı olaraq araşdırılacaq.

İlk baxışda karma inancının insanlara bəzi gözəl əxlaq xüsusiyyətləri qazandıra biləcəyi düşünülə bilər. Çünki, bu inanca görə bir insan yenidən dünyaya gəldikdə ən yaxşı şərtlərdə yaşamaq istəyəcək, bu səbəbdən indiki həyatını, bir sonrakı dünya həyatını qazanmaq üçün ən doğru şəkildə yaşamağa cəhd edəcək. Ancaq, həm karma, həm karmanın təməlini meydana gətirən reinkarnasiya inancı, həm də karma inancına sahib olan hinduizm, buddizm kimi dinlərin özündə birləşdirdiyi bir çox batil inanc insan ağlına, məntiqinə, vicdanına və fitrətinə ziddir. Bu səbəblə də, bəhsi keçən dinlərin özündə birləşdirdiyi qanun və tətbiqlərin insanlara gözəl əxlaq, cəmiyyətlərə da həqiqi mənada hüzur, sülh və xoşbəxtlik gətirməsi mümkün deyil. Bu inancların geniş yayıldığı, hətta dövlət dini olaraq qəbul edildiyi ölkələrdəki həyat şəraiti və ədalətsizliklər bunun ən bariz nümunələrindəndir.

Hinduizm və buddizm kimi dinlərə aid inancların insanların diqqətini çəkməsinin ən əhəmiyyətli səbəblərindən biri, dünya səviyyəsində məşhur olan bəzi kino ulduzlarının və sənətçilərin bu inanclara olan marağıdır. Tibetdə buddist geyimlərində şəkillər çəkdirən, yaxud meditasiya ilə rahatlıq tapdıqlarını açıqlayan bəzi məşhurlar insanların diqqətlərini bu azğın inanclara çəkməyə çalışırlar. Bununla yanaşı, cəmiyyətdə yaradılan mistik və sirli ab-hava xüsusilə gənclərin bu dinlərə marağına səbəb olur.

Ancaq bu ab-havadan təsirlənərək karmanı həyat fəlsəfəsi halına gətirən insanların böyük əksəriyyəti də əslində bu fəlsəfələri ətraflı araşdırmaz, diqqətlə düşünməzlər. Bu kəslər ümumiyyətlə, mənəviyyata meyilli olduqları üçün, bu fəlsəfələrin gözəl əxlaqla əlaqədar hissələri daha çox diqqətlərini çəkər. Bu səbəblə də, bu dinlərdəki bir çox inancın ziddiyyətli, məntiqsiz, insan fitrətinə və vicdanına zidd xüsusiyyətlərini görməz, bəzi vaxtlar da görməzlikdən gələrlər. Halbuki, içində yaşadığı çətin və sıxıntılı həyatdan xilas olmağı və bütün insanların xoşbəxtlik, əmin-amanlıq və sülhlə dolu bir həyat içində yaşamağını səmimi olaraq istəyən bir adam doğru yolu tapmaq üçün səy göstərməlidir. Bunun üçün təsirində qaldığı

fəlsəfələri diqqətlə araşdırmalı, tapdığı yolun ən doğru, ən ağıllı və vicdana ən uyğun yol olduğuna səmimi qərar verməlidir.

Bu kitabın hazırlanma məqsədi də, bu cür axtarış içində olan insanlara ən doğru yolun karma kimi -hər nə qədər müsbət mesajları özündə birləşdirsə də- qaynağı batil xurafatlarla və ağıldankənar üsullarla dolu hind dinləri olan bir fəlsəfəyə uymaq olmadığını göstərməkdir. İnsanların həm dünyada, həm də ölümdən sonrakı sonsuz həyatlarında xoşbəxtlik və hüzur içində yaşaya bilmələrinin tək yolu Allaha iman etmələri və Quranda bildirilənlərə əməl etmələridir. Quran Rəbbimizin düşünən insanlar üçün endirdiyi haqq kitab və insanları qaranlıqlardan işıqlığa çıxaran yeganə hidayət rəhbəridir. İnsanları pisliklərdən, fitnə-fəsad törətməkdən, mərhəmətsizlikdən, zalımlıqdan, ümidsizlikdən, bədbinlikdən, bədbəxtlikdən və hər cür çirkin davranışdan uzaq tutan şey göylərin və yerin yaradıcısı olan Allahdan qorxaraq Quran əxlaqını yaşamaqdır.

# KARMA İNANCINA GÖRƏ REİNKARNASİYA

Karma fəlsəfəsinin nəticəsi olaraq reinkarnasiya, yəni insanın öldükdən sonra başqa bir bədənlə dünyaya yenidən gəlməsi inancı hind dinlərinə köklü surətdə yerləşmişdir. Karma və reinkarnasiya arasındakı əlaqə *"Dinlər tarixi"* adlı kitabda belə izah edilir:

Karma doktrinasına bağlı olaraq tənasuh, yəni ruhun bir bədəndən o birinə keçməsi inancı meydana gəldi. Beləcə, ölümdən sonra həmişə mövcud olma, ruhun bədəndən ayrı olduğu fikri inkişaf etmiş oldu. Bu inanca görə ruh öz dərəcəsi içində yüksək və ya alçaq olaraq doğular. İnsan etdiklərinə görə heyvan, bitki, insan və ya tanrı şəklində doğular. (Buna görə insan öz taleyinin memarıdır) Bu doğuş, bir səbəb-nəticə əlaqəsi içində reallaşar. Mənəvi və əxlaqi qarşılıq, yəni edilənlərin nəticəsində ruhun tənasuhu ilə mümkün olur. Sonrakı həyatda xoşbəxt olmaq, doğru hərəkətə bağlıdır. Hər kəs etdiklərinə görə məsuliyyət daşıyır. Ölümdən qorxmağa gərək yoxdur. Davamlı yenidən doğuşlarla insan arzularına çatar, həmişə razı qalar. O, tanrı Brahmada yaşayar. Bu inancın hindliləri qüvvətli bir nikbinliyə çatdırdığı irəli sürülür. [1]

Göründüyü kimi, karmada axirət inancı yoxdur, bunun yerinə davamlı ölüb, təkrar dünya həyatında eyni ruhla, lakin yeni bir bədənlə dirilmə inancı vardır. Ancaq bu, Allahın Quranda bildirdikləri ilə ziddiyyət təşkil edən, batil və azğın bir inancdır.

Bu fəlsəfədə diqqət çəkən digər bir azğın inanc isə, insanın bir ilah olaraq da doğula bilməsi inancıdır. Bu, tarix boyunca inanılan ən batil və həqiqətdən kənar iddiadır. Bu cür bir iddia açıq şəkildə Allaha şirk qoşmaq mənasını verir. Halbuki, məlumdur ki, heç bir insan ilah ola bilməz. Yalnız bir İlah var, O da uca Allahdır. O, nə doğmuş, nə də doğulmuşdur. Bütün kainatın və canlıların sahibi, yaradanı, qoruyucusu və ilahı Allahdır. Onun tayı-bərabəri yoxdur. Rəbbimiz olan Allah bu həqiqəti Quranın İxlas surəsində belə bildirir:

**De: "O Allah Təkdir! Allah Möhtac deyildir. O, nə doğmuş, nə də doğulmuşdur! Onun heç bir bənzəri də yoxdur!" (İxlas surəsi, 1-4)**

Bundan kənar bir inanca sahib olanlar doğru yoldan azanlardır və dünyada da ölümdən sonrakı həyatda da ziyana uğramış olanlar bunlardır.

## Quranda reinkarnasiya yoxdur, ölüm və diriliş bir dəfədir

Reinkarnasiya heç bir ilahi qaynağa əsaslanmayan batil bir inancdır. Ancaq təkcə hind dinlərində deyil, dünyanın hər yerində reinkarnasiyaya inanan, daha doğrusu reinkarnasiyanın doğru olmasını istəyən insanlar var. Bunun səbəbi dinə inanmayan, axirətin varlığını inkar edən, ölümdən sonra yox olmaqdan və ya sonsuza qədər cəhənnəmdə qalmaqdan qorxan insanların reinkarnasiyanın bu qorxularını məğlub etmək üçün bir çıxış yolu olaraq görmələridir. Çünki reinkarnasiya inancının təməlində də ölümdən qorxmamaq lazım olduğu və insanın yenidən doğuşlarla arzularına çata biləcəyi istiqamətində həqiqətdənkənar bir təlqin durur.

Halbuki, Quranda ölümün və dirilişin bir dəfə olduğu bildirilir. Hər insan dünyada yalnız tək bir həyat yaşayar, bu həyatından sonra ölər və ölümündən sonra təkrar dirildilərək dünyada

bütün əməllərinə görə sonsuza qədər cənnətdə və ya cəhənnəmdə qalmağa layiq görülər. Yəni insanın bir dünya həyatı, bir də sonsuza qədər yaşayacağı axirət həyatı vardır. İnsanların öldükdən sonra dünya həyatına geri qayıda bilməyəcəkləri Quranda çox açıq şəkildə bildirilir:

**Məhv etdiyimiz obalara qadağa qoyulmuşdur və onların əhalisi bir daha bu dünyaya qayıtmayacaqlar. (Ənbiya surəsi, 95)**

**Nəhayət, onlardan birinə ölüm gəldiyi zaman deyər: "Ey Rəbbim! Məni geri qaytar. Bəlkə, tərk etdiyim yaxşı əməlləri indi edəm". Xeyr! Onun bu dedikləri ancaq boş bir sözdür. Onların arxasında diriləcəkləri günə qədər bərzəx həyatı vardır. (Muminun surəsi, 99-100)**

Yuxarıdakı ayələrdə də göründüyü kimi, insanların bir hissəsi ölüm ilə qarşılaşdığı vaxt təkrar dirilməyi ümid edəcək. Ancaq özlərinə bunun qətiyyən mümkün olmadığı o an açıqlanacaq. Allah bir başqa ayəsində insanların ölümü və dirildilməsi ilə əlaqədar bunları bildirir:

**Allahı necə inkar edirsiniz ki, siz ölü idiniz, O sizi diriltdi? Sonra O sizi öldürəcək və yenə dirildəcək, daha sonra isə siz Ona qaytarılacaqsınız. (Bəqərə surəsi, 28)**

Yuxarıdakı ayədə göründüyü kimi, insan başlanğıcda ölüdür, yəni yaradılışının əsası başlanğıcda torpaq, su, palçıq kimi cansız maddələr ibarətdir. Daha sonra Allah bu cansız yığına "bir nizam içində şəkil verib" dirildər. Bu dirilişdən müəyyən bir müddət sonra insan həyatı sona çatınca təkrar öldürülər və torpağa geri qayıdar, çürüyüb toz halına gələr. Bu da insanın ikinci dəfə ölü vəziyyətində olmasıdır. Növbəti mərhələ isə son dəfə dirildilməsidir. Bu da axirətdəki dirilməsidir. Hər insan axirətdə dirildiləcək və bir daha geri qayıtmağın mümkün olmadığını anlayaraq dünyada etdiyi hər şeyin hesabını verəcək.

Digər ayələrdə də insanın dünyaya gəldikdən sonra tək bir ölümdən başqa ölüm dadmayacağı belə bildirilir:

**Onlar orada ilk ölümdən başqa heç bir ölüm dadmayacaqlar. Allah onları Cəhənnəm əzabından qorumuşdur. Sənin Rəbbinin lütfkarlığı sayəsində. Məhz bu, böyük uğurdur. (Duxan surəsi, 56-57)**

Yuxarıdakı ayələr ölümün yalnız bir dəfə olduğunu son dərəcə açıq və qəti şəkildə göstərir. İnsanlar hər nə qədər ölüm və axirət qorxularını məğlub etmək və özlərini təsəlli etmək üçün reinkarnasiya kimi batil inancları qəbul etmək istəsələr də, həqiqət, öldükdən sonra bir daha dünyaya gəlməyəcəkləridir. Hər insan yalnız bir dəfə öləcək və bu ölümündən sonra Allahın təqdiri olaraq sonsuza qədər yaşayacağı axirət həyatı başlayacaq. Allah hər insanı dünyada etdiyi yaxşılıq və ya pisliklərə görə cənnətlə mükafatlandıracaq və ya cəhənnəmlə

cəzalandıracaq. Allah sonsuz ədalət sahibi, sonsuz mərhəmətli və şəfqətli olandır və hər kəsə etdiyinin qarşılığını əskiksiz olaraq verəndir.

Ölümdən və ya cəhənnəmə düşmək ehtimalından qorxaraq batil inanclarda təsəlli axtarmaq isə, heç şübhəsiz ki, insanı çox böyük bir ziyana salar. Ağıl və vicdan sahibi bir insan bu istiqamətdə bir qorxusu varsa, cəhənnəm əzabından xilas olub cənnəti ümid edə bilmək üçün səmimi bir qəlblə Allaha yönəlməli və insanlar üçün tək hidayət rəhbəri olan Qurana tabe olmalıdır.

# KARMA İNANCINA GÖRƏ AXİRƏT

Karma inancının yer aldığı dinlərdə axirət inancı yoxdur. Əvvəlki hissələrdə də izah etdiyimiz kimi, bu həqiqətdənkənar iddiaya görə bir insan hər ölümündən sonra təkrar dünyaya gəlir və bu dövran həmişə davam edir.

Hinduizmə görə insan hər dünyaya gəlişində, bir əvvəlki həyatındakı yaxşılıq və ya pisliklərinə görə fərqli bir kastada doğular. Bilindiyi kimi Hindistanda cəmiyyət içində kasta (ictimai qrup) sistemi hələ də qalır və bir insan dünyada nə edirsə etsin, aid olduğu kasta dəyişməz. Kölə olaraq doğulan mütləq kölə olaraq ölər və ya işçi olaraq doğulan işçi olaraq ölər. Hər insanın hansı kastada doğulacağının isə, bundan əvvəlki həyatında etdikləri ilə bağlı olduğuna inanılır. Məsələn, bu həyatında kölə olaraq yaşayan bir insan, əgər yaxşı işlər görsə, karma iddiasına görə bundan sonrakı həyatında bundan yuxarı kastada doğulacaq.

Yenə bu həqiqətdənkənar iddiaya görə, hər dünyaya gəlişində “yaxşı karması olan” bir insan hər səfərində əvvəlkindən yuxarı kastada doğular və son olaraq da ən yuxarı kastada bir rahib olaraq dünyaya gələr. Rahib olaraq yaxşı işlər görən insanın isə bir daha dünyaya gəlməyəcəyinə inanılır. Belə bir insanın “Həyat dairəsi” nin qurtardığına və “Nirvanaya çatdığına” inanılır.

Bu batil inanca görə “Nirvanaya çatmaq” bir insanın bütün dünyəvi arzularından sıyrılıb, “Dünya ruhu” olaraq xarakterizə edilən Brahmanın ruhuna qayıtması, Brahma ilə birləşməsi mənasını verir. Hind dinlərində bir ruhun çata biləcəyi ən böyük xoşbəxtliyin bu olduğuna inanılır. Bu səbəbdən, bu səhv inanca görə bir insan hər dünyaya gəlişində yaxşılıq etsə belə, bunun nəticəsində bir axirət həyatı ilə qarşılaşmaz və Brahmanın ruhuna dönərək, onun ruhu ilə birləşər. [2]

Buddizmdə axirət inancının olmadığını Sanskrit və Müqayisəli Filologiya professoru E. Washburn Hopkins, “*The Religions of India*” (Hindistan dinləri) adlı kitabında belə izah edir:

Unutmamalıyıq ki, Buddanın qurmuş olduğu sistemin məntiqi onu bu dünyada xoşbəxt olmamış kəslərin xoşbəxt ola biləcəyi başqa bir aləmin varlığını qəti inkara aparmışdır. O, o biri dünyanı inkar edən düşüncəsində israr edərək şagirdlərini və tədqiqatçılarını insanın ölümdən sonrakı taleyini araşdırmaqdan və bu mövzuda sual soruşmaqdan yayındırmaq üçün hər yola əl atmışdır. Budda Nirvanaya çatmağın varlığın yox olmasına gətirib çıxardığına inanmış və heç bir zaman ölümsüz bir varlıq fikrini qəbul etməmişdir. Onun israrla üzərində dayandığı xüsus hər kəsin karma və yenidən doğulma doktrinalarını tam mənasıyla qəbul edərək mümkün olduğu qədər tez içində olduğu çətin doğum-ölüm dairəsindən bir an əvvəl xilas olmağa səy göstərməsidir. Bunun üçün də ayıq, aydın və yaxşı bir mömin olmaq müvəffəqiyyətin təməl şərtidir. [3]

Bəzi buddist qaynaqlarda isə ölümdən sonrakı həyatla əlaqədar olaraq bu məlumatlar verilir:

Yenidən doğum istər cənnətdə, istərsə də cəhənnəmin müxtəlif təbəqələrinin birində reallaşmış olsun, bəhsi keçən bu məkanlardakı həyat eynilə yer üzündəkilər kimi keçicidir, əbədi deyil. Fərdin bu məkanlardakı qalma müddəti hinduizmdə olduğu kimi, onun yer üzündə ikən etdiyi yaxşılıq və pisliyin miqdarına bağlıdır. Təyin olunan müddətin başa çatmasından sonra yenidən yer üzünə qayıdacaqdır. Cənnət və cəhənnəm fərdin yer üzündəki hərəkətlərinin qarşılığını gördüyü müvəqqəti həyat təbəqələrindən başqa bir şey deyil. [4]

Göründüyü kimi, karmaya görə insanların etdiklərinin qarşılığını aldığı bir növ cənnət və cəhənnəm inancı vardır. Ancaq, haqq bir dinə aid olmadığı üçün bu inancda bir çox ziddiyyət və məntiqsizlik var. Hər şeydən əvvəl haqq dində bildirildiyinin əksinə cənnət və cəhənnəmin əbədi deyil, müvəqqəti olduğu iddia edilir.

Ən məntiqsiz istiqaməti isə, bütün bu sistemin özbaşına işlədiyinə inanılmasıdır. Yəni bu inancda nə dünya həyatını, nə də cənnət və cəhənnəmi yaradan, insanlara etdiklərinin qarşılığını verən bir Yaradıcının varlığı qəbul edilməz. Bu, son dərəcə məntiqsiz və qəbul edilməsi imkansız olan bir iddiadır. Bir yaradıcı güc, ədalətlə hökm edən, cənnəti və cəhənnəmi yaratmağa qadir uca bir qüdrət olmadan, insanların cənnət və cəhənnəmə gedəcəkləri iddiası, ağıl və vicdanla qəbul edilə bilməz.

Həmçinin, karma fəlsəfəsində bunlar iddia edilərkən cənnət və cəhənnəmin bir Yaradıcı olmadan necə meydana gəldiyinə dair heç bir izah yoxdur. Yalnız bir ənənə və xurafat olaraq belə azğın bir inanc irəli sürülür.

## Quranda təsvir edilən axirət inancı

Yuxarıda da bəhs edildiyi kimi, karma fəlsəfəsini mənimsəyən dinlərdə axirət inancı ya heç yoxdur, ya da axirətdən müvəqqəti yaşayış yeri olaraq bəhs edilir. Halbuki, Allah Quranda insanların qısa bir müddət dünyada yaşadıqdan sonra sonsuza qədər “əsil yurdları” olan axirətdə qalacaqlarını bildirir. Quranda təsvir edildiyinə görə əsil müvəqqəti olan yer dünya həyatıdır. Hər insan orta hesabla 50-60 illik dünya həyatı boyunca bütün etdiklərinin qarşılığını cənnətdə və ya cəhənnəmdə alacaq. Bu həqiqət Quranda belə bildirilir:

**Bu dünya həyatı əyləncə və oyundan başqa bir şey deyildir. Axirət yurdu isə əsil həyatdır. Kaş ki, biləydilər! (Ənkəbut surəsi, 64)**

**Dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Müttəqilər üçün isə axirət yurdu daha xeyirlidir. Məgər anlamırsınız? (Ənam surəsi, 32)**

Axirətə iman etmək İslam dininin ən başlıca mövzularından biridir. Buna görə bir müsəlmanın axirətin varlığını inkar edən bir inancı doğru qəbul etməsi və ya bu inancı özünə rəhbər tutması mümkün deyil. Bu batil inancı qulaqdan duyma məlumatlarla, kiməsə oxşamaq səbəbiylə, ya da moda olduğu üçün mənimsəyənlər bu həqiqəti mütləq göz qarşısında saxlamalıdır. Çünki Allah axirəti yalan sayanların vəziyyətlərini Quranda belə bildirir:

**Ayələrimizi və axirətə qovuşmağı yalan sayanların əməlləri puç oldu. Məgər onlar yalnız etdikləri bu əməllərə görə cəzalandırılmayacaqlarmı? (Əraf surəsi, 147)**

Ayədə də bildirildiyi kimi, Allahın ayələrini və axirətin varlığını inkar edən bir insanın əməllərinin yaxşı bir qarşılığı olmayacaq. Bunlar yaxşılıq da olsa, əgər Allahın razılığı, rəhməti və

cənnətini qazanmaq üçün edilməzsə, dünyaya təkrar gələcəyinə inanaraq bir sonrakı həyatında daha yaxşı bir həyata sahib olmaq kimi batil məqsədlər üçün edilərsə, -Allahın diləməsi xaricində- Rəbbimizin qatında bir savabı olmaya bilər.

## Cənnət və cəhənnəm həyatı sonsuza qədər davam edəcək

Karma fəlsəfəsinə inananların müdafiə etdiklərinin əksinə, cənnət və cəhənnəm müvəqqəti məkanlar deyil. Hər ikisi də sonsuza qədər davam edəcək. Həmçinin cənnətə girənlərin cənnətdən çıxmayacaqları kimi, cəhənnəmə girənlərin bir qismi də əsla cəhənnəmdən çıxa bilməyəcəklər. Təkcə karma fəlsəfəsində deyil, xalq arasında məşhur olan bir çox inancda cəhənnəmin müvəqqəti olduğuna, insanların əzab görüb cəzalarını çəkdikdən sonra cəhənnəmdən çıxacaqları haqda batil bir inanc var. Ancaq bu qətiyyən doğru deyil. Cəhənnəmə girən insanlardan bir qismi etdiklərinin qarşılığı olaraq cəhənnəmdə sonsuza qədər qalacaq. Allah bu həqiqəti insanlara belə bildirir:

**Onlar dedilər: "Od bizə ancaq bir neçə gün toxunacaq!" De: "Məgər siz Allahdan əhd almısınız? Allah verdiyi əhdə əsla xilaf çıxmaz! Yoxsa Allaha qarşı bilmədiyinizi danışırsınız?" Xeyr! Günah qazanan və xətaları özlərini bürüyən kimsələr – məhz onlar Od sakinləridir və orada əbədi qalacaqlar! İman gətirib yaxşı işlər görənlər isə Cənnət sakinləridir. Onlar orada əbədi qalacaqlar! (Bəqərə surəsi, 80-82)**

## Ölümlə yox olmaqdan qorxanlar, cəhənnəmdə sonsuza qədər yox olmağı istəyəcəklər

İnsanların bir qisminin reinkarnasiyaya inanmağının ən əhəmiyyətli səbəblərindən biri daha əvvəl də qeyd edildiyi kimi, ölümlə birlikdə yox olmaq qorxularıdır. Bu fikir inancsız və ya zəif imanlı insanları çox qorxutduğu üçün ya ölüm haqda heç düşünmək istəməzlər, ya da reinkarnasiya kimi batil düşüncələrə inanaraq özlərini təsəlli etməyə çalışarlar.

Halbuki, ölümlə birlikdə insan yox olmaz. Yox olan yalnız insanın bədənidir. Ruhu isə sonsuza qədər yaşayacaq. Ancaq bu yeni həyat reinkarnasiya inancında olduğu kimi, yeni bir dünya həyatı deyil, axirət həyatıdır. Hər insan dünya həyatında etdiklərinin qarşılığını alacaq; ya sonsuz nemətlərin olduğu, saysız gözəlliklərlə təchiz edilmiş, xoşbəxtlik və hüzur dolu cənnət həyatıyla, ya da dözülməz iztirab və əziyyətlərlə dolu cəhənnəm odu ilə qarşlığını alacaq. Etdiklərinin qarşılığı sonsuz cəhənnəm əzabı olan inkarçılar bu əzabla qarşılaşmamaq üçün ölümü və yox olmağı minlərlə dəfə arzulayacaqlar, ancaq bu dünya həyatlarındakı inkarlarının qarşılığını ən ədalətli şəkildə alacaqlar. Allah cəhənnəm əhlinin vəziyyətlərini ayələrdə bu şəkildə bildirir:

**Kimin kitabı arxa tərəfindən veriləcəksə, o özünə ölüm diləyəcək və alovlu oda atılacaqdır! Sözsüz ki, o, dünyada ikən öz ailəsində sevinc içində idi və elə güman edirdi ki, Rəbbinin hüzuruna qayıtmayacaqdır. (İnşiqaq surəsi, 10-14)**

**Onlar əlləri boynunda bağlı halda Cəhənnəmin dar bir yerinə atıldıqları zaman ölüm diləyərlər. Onlara deyilər: "Bu gün özünüzə bir ölüm deyil, çoxlu-çoxlu ölümlər istəyin!" (Furqan surəsi, 13-14)**

Cəhənnəm əzabı o qədər şiddətli və ağrı-acılı olacaq ki, dünyada ölümdən və yox olmaqdan qorxaraq batil inanclara sarılanlar, Allahın dinindən üz çevirənlər, Allahı və axirəti inkar edənlər, o çox qorxduqları yox olmağı cəhənnəm əzabının əvəzinə istəyəcəklər.

Qurandan, axirətin varlığından və cəhənnəmdəki sonsuz əzab ilə, cənnətdəki sonsuza qədər davam edəcək olan fövqəladə gözəllikdəki həyatdan xəbərdar olan hər insan bu həqiqətlər üzərində səmimiyyətlə və diqqətlə düşünməlidir. Cəhənnəm əzabının var olduğuna bir az olsun ehtimal verən bir insanın, bu əzabı düşünməkdən qaçması ağıllı və vicdanlı bir davranış deyil. Üstəlik, belə davranmaq insanın sonsuza qədər çox böyük peşmançılıqlar yaşamasına da səbəb olar. İnsanın qarşısında cəhənnəm əhlindən olmaq kimi dəhşət verici bir ehtimal var ikən bu düşüncəni ağlından çıxarmağa çalışaraq sanki qısa dünya həyatının "dadını qaçırmamağa" çalışması böyük bir ağılsızlıqdır. Əksinə insan bu əzaba layiq olmamaq üçün çox ciddi bir səy göstərməli, Allahın Quranda bildirdiyi gözəl əxlaqa həssaslıqla tabe olmalı, dünyada özünə verilən müddəti axirət üçün ən yaxşı şəkildə qiymətləndirməlidir. Çünki insan hələ ölüm özünə gəldiyi anda həqiqətləri bütün açıqlığı ilə görəcək. Ölüm qorxusu ilə həqiqətləri düşünməkdən qaçan insanların o andakı söhbətləri Quranda belə xəbər verilir:

**Ölüm bihuşluğu həqiqətən gələcəkdir. Ey insan! Bu sənin uzaq qaçdığın şeydir. Sur üfürüləcəkdir. Bu, vəd olunmuş təhdid günüdür. Hər kəs onu qova-qova məhşərə gətirənlə və bir də əməllərinə şahidlik edənlə birlikdə gələcəkdir. Sən bunun (bu günün) haqqında qəflət içində idin. Amma Biz pərdəni sənin üzündən qaldırdıq. Sən bu gün çox yaxşı görürsən!" Yoldaşı (şahid mələk) deyəcəkdir: "Bu yanımdakı hazırdır!" Allah əmr edib deyəcək: "Atın Cəhənnəmə hər bir inadcıl kafiri, xeyrə mane olanı, azğınlaşıb həddi aşanı, şübhə edəni, başqa bir məbudu Allaha tay tutanı. Atın onu şiddətli əzabın içinə!" (Qaf surəsi, 19-26)**

# KARMA İNANCINDA DÜNYA HƏYATI

Daha əvvəl də ifadə edildiyi kimi, karma inancına görə bu dünya həyatında yaxşılıq edən bundan sonrakı həyatında yaxşılıqla, pislik edən isə pisliklə qarşılığını alacaq. Bu səbəbdən, karma inancında dünya həyatı bundan əvvəlki həyatının bir nəticəsi və bundan sonrakı dünya həyatının səbəbidir. İlk baxışda ölümdən sonrakı yeni həyata dair bu fikirlərin karma inancına sahib insanların gözəl davranışlar etmələrinə səbəb olacağı düşünülə bilər. Yəni karma fəlsəfəsinə inanan insanların bundan sonrakı həyatlarında yaxşılıqla və gözəlliklə qarşılıq almaq üçün gözəl davranışlar göstərməyə, pisliklərdən uzaq durmağa çalışacaqlarına inananlar ola bilər.

Ancaq, səmimi olaraq gözəl əxlaqlı olmağa qərar verməyən bir insan üçün karma inancının ciddi mənada təşviq etmə təsiri yoxdur. Karmada insanlar bu həyat dairəsinin saysız olduğuna və hər ölümdən sonra mütləq təkrar diriləcəklərinə inandıqları üçün önlərində saysız şans olduğunu zənn edirlər. Buna görə bir insan hər hansı bir pislik etməyə qərar verdikdə, “bundan sonrakı həyatımda daha pis bir həyatla yaşasam belə, bunu sonrakı həyatımda düzəldə bilərəm” deyə düşünər. Bu səbəblə, belə çürük təməllər üzərində qurulmuş bir anlayış insanları pisliklərdən çəkindirməyə kifayət etmir. Çünki dünya həyatına bağlılıq insanların böyük bir hissəsinin əhəmiyyətli bir zəifliyidir. Reinkarnasiya kimi batil bir fikrə inanmalarının ən əhəmiyyətli səbəbi də bu bağlılıqları və dünya həyatından heç bir şəkildə imtina edə bilməmələridir. İnsanların davranışlarını köklü bir şəkildə düzəldərək gözəl əxlaqı yaşamaları isə, ancaq bu dünya həyatının həqiqi mənasını qavramalarıyla mümkün olar.

Dünya həyatının əsil istiqamətini bilən bir insan özünü və bütün kainatı yaradan onu qoruyan Rəbbimizə qulluq üçün yaradıldığını, hər etdiyindən, hər sözündən və düşüncəsindən Allaha qarşı məsul olduğunu və ölümündən sonra Ona hesab verəcəyini bilər. İnsanların Allaha qulluq üçün yaradıldıqları Quran ayələrində belə bildirilir:

**Ey insanlar! Sizi və sizdən öncəkiləri yaratmış Rəbbinizə ibadət edin ki, bəlkə Allahdan qorxasınız. (Bəqərə surəsi, 21)**

**Budur sizin Rəbbiniz olan Allah. Ondan başqa ibadətə layiq olan məbud yoxdur. Hər şeyin Yaradıcısı Allahdır! Elə isə Ona ibadət edin! O, hər şeyi Qoruyandır. (Ənam surəsi, 102)**

Allahın gücünü təqdir edə bilən, Allahın verəcəyi əzabdan qorxu duyan möminlər, yalnız Allaha ibadət edər, Onun əmrlərinə qeyd-şərtsiz tabe olar, pisliklərdən çəkinərək Rəbbimizi razı edəcək davranışlar göstərərlər. Möminlərin Allahdan qorxub çəkindikləri və bundan ötrü gördükləri gözəl qarşılıq Quran ayələrində belə bildirilir:

**Ey insanlar! Rəbbinizdən qorxun. Valideynin övlada, övladın da valideynə heç bir fayda verə bilməyəcəyi gündən çəkinin. Həqiqətən, Allahın vədi bir həqiqətdir. Qoy bu fani dünya sizi çaşdırmasın, hiyləgər şeytan da sizi Allahın əzabından arxayınlaşdırıb tovlamasın. (Loğman surəsi, 33)**

**De: “Sizə bunlardan daha yaxşısı barədə xəbər verimmi? Allahdan qorxanlar üçün Rəbbi yanında ağacları altından çaylar axan, içində əbədi qalacaqları Cənnət bağları, pak zövcələr və Allahın rizası vardır”. Allah qullarını görür. (Ali İmran surəsi, 15 )**

Allahdan qorxub çəkinən möminlər həyatları boyunca Allaha olan qulluq vəzifələrini yerinə yetirmək, sonsuz və ağrılı-acılı bir əzabdan qorunmaq üçün ibadətlərində və gözəl əxlaq göstərməkdə qərarlı olarlar. Necə ki, Allah Quranın bir çox ayəsində ibadətlərin, qulluğun, gözəl əməllərin və əxlaqın davamlı olmasını təşviq etmişdir:

**Göylərdə və yerdə nə varsa, Onundur. Din də daim Ona məxsusdur. Siz Allahı qoyub başqasındanmı qorxursunuz? (Nəhl surəsi, 52)**

**Var-dövlət və övladlar dünya həyatının bərbəzəyidir. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında savab və ümid baxımından daha əfzəldir. (Kəhf surəsi, 46)**

**Allah doğru yolda olanların doğruluğunu artırar. Əbədi qalan yaxşı əməllər isə Rəbbinin yanında savab baxımından daha xeyirli, aqibətcə daha yaxşıdır. (Məryəm surəsi, 76)**

**O kəslər ki, namazlarını həmişə qılırlar. (Məaric surəsi, 23)**

Nəticə olaraq, bir insanın həqiqi mənada üstün bir əxlaqa sahib olmasının, mənfəətləri ilə zidd olsa belə gözəl əxlaqdan güzəştə getməməsinin tək yolu Allaha qarşı güclü bir sevgi və bağlılığı olması, Ondan qorxub çəkinməsi və Ona qulluqda qərarlı olmasıdır. Əks təqdirdə, hər insanın özünə aid bəzi gözəl xüsusiyyətləri ola bilər, ancaq bunlar ya sayılıdır, ya qısa müddətlidir və ya bəzi şərtlərə bağlıdır. Karma fəlsəfəsində də insanlara bəzi gözəl davranışlar tövsiyə edilir. Ancaq bunların davamlı olması mümkün deyil, çünki insanın hər şərtdə yaxşılıq etməsi üçün Allaha iman etməli, etdiyi hər şeyi Onun rizası üçün etməli, Onu tanıyıb təqdir etməli və Ondan qorxub çəkinməlidir.

## Quranda dünya həyatının sınaq yeri olduğu bildirilir

Quranda dünya həyatının bir dəfə yaşanacağı və bu həyatın məqsədinin insanların sonsuz həyatları üçün sınaqdan keçmələri olduğu bildirilir. Yəni insanların ölümü gördükdən sonra bir daha dünyaya qayıdıb etdikləri səhvləri düzəltmək imkanları yoxdur. Allah dünya həyatının məqsədinin nə olduğunu bir ayəsində belə bildirir:

**Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır. (Mülk surəsi, 2)**

Dünya həyatı hər insan üçün Allahın qarşısına çıxardığı hadisələrlə sınandığı, gözəl əxlaq göstərib göstərməyəcəyinin sınandığı bir imtahan yeridir. Allah Quranda insanların **"iman etdik deməklə onlardan əl çəkilməyəcəyini və mütləq imtahan ediləcəklərini"** bildirir. (Ənkəbut surəsi, 2)

Bir insanın həyatı boyunca qarşısına çıxan heç bir hadisə təsadüfi deyil. Hamısı Allah tərəfindən bir sınaq olaraq yaradılmışdır və taleyində ən kiçik təfərrüatına qədər yazılmışdır. Məsələn, bir insanın zəngin və ya məşhur olması o insanın -karma inancında olduğu kimi- fərz edilən keçmiş həyatında etdiyi yaxşılıqların bir qarşılığı deyil. Allah o insanı zənginlik və şöhrət ilə sınayır. Əhəmiyyətli olan o adamın sahib olduqlarına görə azğınlaşıb azğınlaşmayacağı, naşükür yoxsa şükür edənlərdən olacağıdır. Eyni şəkildə, kasıblıq və çətinlik içində yaşayan bir insanın da keçmiş həyatındakı pisliklərinin qarşılığını gördüyü istiqamətindəki inanc batildir. Allah bu insanı da çətinlik və sıxıntı ilə sınayır. Bu həyatın yaradılmasının səbəbi isə, bu adamın qarşılaşdığı çətinliklər qarşısında Allaha təvəkkül edərək gözəl bir əxlaq göstərib göstərməyəcəyinin müəyyən edilməsidir.

Özünə dünya həyatında verilən bütün nemətlərin Allahdan böyük bir lütf olduğunu bilən, bunlar üçün şükür edən və sahib olduğu hər şeydən Quranda bildirilən sərhədləri qoruyaraq və Allahın razı olacağı şəkildə istifadə edən insan axirətdə gözəl bir qarşılıq görməyi ümid edə bilər. Ancaq bu nemətlərə sahiblənib, onların Allahın bir lütfü olduğunu unudan, bunlarla qürurlanaraq azğınlaşan və doğru yoldan azaraq harama yönələn insanlar üçün axirətdə pis bir qarşılıq vardır. Çünki hər insan etdiyi pisliyin və ya yaxşılığın qarşılığını axirətdə ən ədalətli şəkildə alacaq. Allah insanın sahib olduqlarının onun üçün yalnız sınaq olduğunu bir ayəsində belə xəbər verir:

**Bilin ki, var-dövlətiniz də, övladlarınız da ancaq bir imtahandır. Böyük mükafat isə Allah yanındadır. (Ənfal surəsi, 28)**

Ayədə də bildirildiyi kimi, insan çətinlik və sıxıntılarla sınanacaq. Bu çətinliklərin şiddəti və forması isə tamamilə Allahın təqdirindən asılıdır. Bu şəkildə sınanan hər bir insan hər şəraitdə Allaha təvəkkül etməli, hər çətinliyin və sıxıntının özü üçün bir xeyir olduğunu düşünməli və səbir edərək Allahdan razı olmalıdır. Bu mövzu Quran ayələrində belə bildirilir:

**Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənlərə müjdə ver. O kəslər ki, onlara bir müsibət üz verdikdə: "Biz, Allaha məxsusuq və Ona da qayıdacağıq!" – deyirlər. Onlara öz Rəbbi tərəfindən təriflər və mərhəmət vardır. Məhz onlar doğru yolda olanlardır. (Bəqərə surəsi, 155-157)**

**Siz hökmən malınız və canınızla sınaqdan keçiriləcəksiniz. Sizdən əvvəl Kitab verilənlərdən və müşriklərdən bir çox əziyyətverici sözlər eşidəcəksiniz. Əgər səbir**

**edib Allahdan qorxsanız, bilin ki, bu, əzmkarlıq tələb edən əməllərdəndir. (Ali İmran surəsi, 186)**

**Dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Müttəqilər üçün isə axirət yurdu daha xeyirlidir. Məgər anlamırsınız? (Ənam surəsi, 32)**

Dünya həyatının həqiqi tərəfini düşünərək görə bilən və bu həqiqətə görə yaşayan insanlar isə, ölümlərindən sonra sonsuza qədər davam edəcək olan əsil həyatlarını böyük bir xoşbəxtlik və hüzur içində keçirəcəklər. Bu, Allahın iman edənlərə bir vədidir və sonsuz rəhmət, şəfqət və mərhəmət sahibi olan Rəbbimiz, heç bir zaman vədindən dönməz.

# KARMA İNANCINA VƏ QURANA GÖRƏ TALE ANLAYIŞI

Karma inancında tale haqqında son dərəcə azğın bir anlayış var. Karmaya görə bir insanın taleyi öz əlindədir. *"Dinlər tarixi"* adlı kitabda bu tale inancı belə izah edilir:

... Karma, insanın iradəsi ilə etdiyi şeyi bunun nəticəsini əhatə edir. Edilənlər insan üçün labüd son hazırlayar. Hər kəs belə bir karmanı miras götürür. Bunun ardınca digər karma gələr. Bu determinizm deyil. Çünki öz karması daxilində hər kəs yaxşı və ya pis iş görməkdə azaddır. İnsanın öz karması onu məcbur etmir. Buddist fikirə görə yeni karma üçün əhəmiyyətli olan davranış deyil, iradədir. Karmanın səmərələrini insan ya bu həyatda, ya yeni doğumda, ya da daha sonrakı doğumda görəcək. [5]

Yuxarıdakı izahda da göründüyü kimi, karma fəlsəfəsində taleyə iman yoxdur. Hər insanın öz taleyini özünün təyin etdiyi kimi həqiqətdənkənar bir fikir hakimdir. Karmaya görə, məsələn, hindli bir insanın içində olduğu kasta və həyat forması tamamilə özünün bundan əvvəlki həyatındakı hərəkətlərindən asılıdır. Yəni bu insan hazırda yaşadığı həyatdakı müqəddəratını bundan əvvəlki həyatında öz əliylə təyin etmişdir.

Halbuki, əslində bir insanın taleyini təyin edən, hər qarşılaşdığı hadisəni yaradan, bu hadisələri və həyatını hələ o insan doğulmadan əvvəl təyin edən Allahdır. Hədid surəsində insanın başına gələn hər şeyin Allahın təqdiri olduğu və biz hələ o hadisəni görmədən əvvəl yaradıldığı belə bildirilir:

**Yer üzündə baş verən və sizin başınıza gələn elə bir müsibət yoxdur ki, Biz onu yaratmamışdan əvvəl o, Yazıda müəyyən edilmiş olmasın. Şübhəsiz ki, bu, Allah üçün çox asandır. (Hədid surəsi, 22)**

## Quranda təsvir edilən tale mövzusu

Tale Allahın keçmiş və gələcək bütün hadisələri "tək bir an" içində yaratmasıdır. Bu da Allah qatında kainatın yaradılış anından qiyamətə qədər olan hər hadisənin yaşanmış və bitmiş olması deməkdir. Bizim üçün hələ yaşanmamış, "gələcək" olaraq adlandırdığımız hadisələr, əslində Allah qatında keçmişimizlə birlikdə tək bir an içində yaşanmışdır. Çünki Allah zamandan münəzzəhdir, yəni zamana bağlı deyil. Zamana bağlı olan insandır. Buna görə, Allah qatında tək bir anda yaşanıb bitmiş hadisələrə bizim şahid ola bilməyimiz üçün müəyyən zaman keçməlidir. Məsələn, bizim bu kitabı oxumağımız üçün zamana ehtiyacımız var. Bir-bir səhifələrini çevirməyimiz üçün də zaman lazımdır. Ancaq Allah əzəldən bəri, daha bu kitab yazılmadan, hətta bu kitabı oxuyanlar, ya da oxuyanların ataları belə doğulmadan əvvəl bu kitabın hər səhifəsini bilir. Bu mövzu üçün belə bir nümunə verə bilərik: Bir küçədə gedən bir insanın küçənin digər başına çatması və küçənin başını görə bilməsi üçün zamana ehtiyacı vardır. Ancaq bu küçənin və küçədə hərəkətə başlayan insanın quş baxışı çəkilmiş şəklinə baxan bir

başqa insan küçənin başındakı insanı da, küçənin sonunu da eyni anda və tək bir müstəvidə görə bilər. Bunun üçün zamana ehtiyac duymaz.

Bu həqiqətin dərk edilməsi son dərəcə əhəmiyyətlidir. Çünki bir insan hər nə qədər həyatı boyunca etdiyi hər şeyi öz istək və iradəsi ilə həyata keçirdiyini hiss etsə də, əslində Allahın özü üçün əvvəlcədən təyin etdiyi taleyini izləyər. İnsanın həyatı bir video kasetə yazılmış film kimidir. Ancaq insanın bu filmi qabağa verərək gələcəkdəkiləri görmək imkanı yoxdur. Allah isə, bu filmin hamısını eyni anda görür və bilir. Onsuz da bu filmi bütün təfərrüatlarıyla təsbit etmiş və yaratmış olan Odur. Biz necə ki, bir xətkeşin əvvəlini, ortasını və sonunu bir dəfədə görə biliriksə, Allah bizim bağlı olduğumuz zamanı əvvəlindən sonuna qədər tək bir an olaraq əhatə etmişdir. İnsanlar isə yalnız zamanı gəldikdə bu hadisələri yaşayıb, Allahın onlar üçün yaratdığı taleyə şahid olarlar.

Dünya üzərində keçmişdə yaşamış və gələcəkdə yaşayacaq olan insanların hər anları, hər halları, ana bətnindəki rüşeym hallarından ölümlərinə, orta məktəbə ilk getdikləri gündən saçlarında ilk ağaran saç telinin meydana gəldiyi saata qədər, hər anları Allah qatında təyin olunmuş, yaşanmış və görülmüşdür. Bu, dünya üzərindəki bütün insanların taleləri üçün bu cürdür.

Keçmişdə və gələcəkdə baş verən hər şeyin, əslində Allah qatında yaşanmış olaraq gizli və hazır hadisələr olmaları isə bizə çox əhəmiyyətli bir həqiqəti göstərir: **Hər insan qeyd-şərtsiz, istəsə də, istəməsə də Allahın özü üçün təyin etdiyi taleyinə təslim olmuşdur.** İnsan keçmişini dəyişdirə bilmədiyi kimi, gələcəyini də dəyişdirə bilməz. Çünki keçmişi kimi gələcəyi də yaşanmışdır. Gələcəyindəki bütün hadisələr, nə zaman, harada, nə yemək yeyəcəyi, kiminlə nə danışacağı, nə qədər pul qazanacağı, hansı xəstəliklərə tutulacağı, nəhayət, nə zaman, necə, harada öləcəyi hamısı məlumdur və bunları dəyişdirə bilməz. Çünki bunlar onsuz da Allah qatında, Allahın hafizəsində yaşanmış olaraq var. Yalnız bunların məlumatı hələ öz yaddaşında deyil.

Bu vəziyyətdə bir insanın başına gələn hadisələrə kədərlənməsi, bunlara sıxılması, narahatlıq duyması, qorxması son dərəcə yersizdir və ağıllı hərəkət deyil. Bu bir insanın baxdığı filmdəki hadisələrə kədərlənməsi, sanki olanları dəyişdirə biləcəkmiş kimi filmdəki obrazlar üçün nigaran olmasına bənzəyir.

Məsələn, həyatının dönüş nöqtəsi olaraq gördüyü bir görüşə gedərkən yolda qəza keçirən və bu görüşü qaçıran bir insan bir anda böyük ümidsizliyə düşər və başına gələnləri şanssızlıq olaraq xarakterizə edər. Hətta "kaş ki, evdən bir dəqiqə gec çıxsaydım və başıma bunlar gəlməsəydi" deyər. Halbuki, bu insan o anda boş yerə şikayətlənər. Çünki o adamın o gün evdən hansı saniyədə çıxacağı, hansı yollardan, hansı minik vasitələrindən istifadə edərək görüş yerinə doğru gedəcəyi, hansı avtomobil ilə və hansı insan ilə toqquşacağı hələ o insan doğulmadan əvvəl Allah qatında bəllidir və Allah hər hadisəni olduğu kimi bu hadisəni də o insan üçün ən xeyirlisi ilə yaratmışdır. İnsan Allahın hadisələrdə yaratdığı xeyir və hikmətləri hər zaman görüb anlaya bilməyə bilər və ya bir müddət sonra anlayar. Ancaq Allahı tanıyaraq Onun sonsuz qüdrətini təqdir edə bilən və Ona təslim olan bir insan, bunların hər birinin böyük bir xeyirlə yaradıldığına əmin olar.

Bu məqamda bu mövzunu da qeyd etmək lazımdır ki, yaşanan hadisələr Allah qatında təkcə bir məlumatdan ibarət olmaz. Bu hadisələrin hamısı yaşandığı andakı canlılığı ilə, hətta bizim bilmədiyimiz qədər canlı və dəqiq olaraq Allah qatında yaradılmışlar və indi də yaşanmağa davam edirlər. Məsələn, Peyğəmbərimizə ilk vəhyin gəldiyi an, Allahın hz. Musaya ağacdan səsləndiyi an, hz. İsanın əliylə toxunaraq bir xəstəni yaxşılaşdırdığı an, hz. İbrahimin

qövmünün ibadət etdiyi bütləri qırdığı an, hz. Yunisin balığın qarnında Allaha dua etdiyi an, hz. Yusifin böhtana uğradığı an, hz. Əyyuba şeytandan bir çətinlik üz verdikdə Allaha dua etdiyi an, hz. Lutun mələkləri qonaq etdiyi an və keçmişdə yaşanmış bütün hadisələr Allahın qatında hazırda ən canlı və ən dəqiq hallarıyla yaşanır. Allahın qatında bu anların hamısı sonsuza qədər yaşanmağa davam edəcək.

Nəticədə qarşılaşdığı bir hadisəni çatışmazlıq, tərslik, şanssızlıq kimi görən, bundan ötrü əsəbiləşən, narahat olan, kədərlənən insanlar öz-özlərinə zülm edirlər. Çünki onlar heç bir zaman dəyişdirməyə güc çatdıra bilməyəcəkləri hadisələr üçün özlərini yorur, bunun üçün gərginlik yaşayırlar. Halbuki, taleyini izlədiyini bilən bir insan bu elmin gətirdiyi rahatlığı və hüzuru yaşayar. Çünki taleni yaradan Allahdır və Allah hər şeyi ən xeyirli, ən gözəl şəkildə yaradar. Allahı tanıyan, Onu sevən və Onun ədalətinə və mərhəmətinə güvənən bir insan sonsuz ağıl sahibi Allahın yaratdıqları və dilədiklərindən başqa özünə heç bir şeyin baş verməyəcəyini bilməyin sərhədsiz kefini yaşayar. Möminlərin Allah qatından özlərinə yalnız xeyir gələcəyinə iman etdikləri bir ayədə belə bildirilmişdir:

**Müttəqilərə: "Allah nə nazil etmişdir?" – deyildikdə, onlar: "Xeyir nazil etmişdir!" – deyərlər. Bu dünyada xeyirli işlər görənlər üçün gözəl mükafat hazırlanmışdır. Axirət yurdu isə daha xeyirlidir. Müttəqilərin yurdu necə də gözəldir! (Nəhl surəsi, 30)**

Allahdan özlərinə gələn hər şeyin xeyir olduğuna inanan insanların dünya həyatlarının sonunda aldıqları mükafat isə bu ayənin davamında belə bildirilmişdir:

**Onlar ağacları altından çaylar axan Ədn bağlarına girəcəklər. Orada onların ürəklərinin istədikləri hər şey vardır. Allah müttəqiləri belə mükafatlandırır. O kəslər ki, tər-təmiz olduqları halda, mələklər onların canını alıb deyirlər: "Sizə salam olsun! Əməllərinizə görə Cənnətə girin!" (Nəhl surəsi, 31-32)**

## Tədbir təqdiri dəyişdirməz

İnsanların böyük bir hissəsi tale həqiqətini anlamazlıqdan gələrək, "madam hər şey taleyimizdədir, onda bizim nəsə etməyimizə gərək yoxdur" deyərək özlərinə taleyə iman etməyi qeyri-mümkün göstərməyə çalışırlar. Halbuki, bu çox dayaz bir düşüncə formasıdır. Əslində bu kəslər bu sözləri də yenə talelərində olduğu üçün söyləyərlər, amma bunun da fərqinə varmazlar. Allah hər insanın taleyini əvvəlcədən təyin etmişdir və Allah qatında hər insanın həyatı yaşanıb bitmişdir.

Ancaq Allah dünya həyatında yaratdığı imtahanın bir gərəyi olaraq insana hər şeyi öz iradəsi ilə edir hissini verir. Məsələn, kitab yazan bir insan, əslində Allah qatında yazılmış, bitmiş, oxuyacaq kəslər tərəfindən oxunmuş bir kitabı yazar. Hələ o insan nələr yazacağını fikirləşərkən, o kitabın bütün sətirləri, paraqrafları, başlıqları, üz qabığındakı rənglər və şəkillər, neçə səhifə olacağı, durğu işarələrinin haralara qoyulacağı kimi hər şey ən incə təfərrüatına qədər Allah qatında hazır olaraq durmuşdur. Ancaq insan bir kitabı yazarkən, Allah o insana özü yazırmış, sözləri, cümlələri özü düşünüb tapırmış hissini verər. Amma bir insanın, "bu kitab

artıq qədərdə varsa yazılmışdır, mənim bir şey etməyimə ehtiyac yoxdur" deyərək imtina etməsi son dərəcə cahilcə və səmimiyyətsiz bir davranış olar. Bu, qapının zənginin çalındığını eşidən bir insanın "çöldəki insanın taleyində içəri girmək varsa, necə olsa içəri girəcək" deyərək qalxıb qapını açmamağı kimi bir cahillik nümunəsidir.

Doğru olan isə budur: Allah hər insanı hadisələri özü edirmiş hissi ilə yaradar və insan bu hissə uyaraq hər mövzuda əlindən gələn səyi göstərər. Məsələn, bir kitabın yazılmasına qərar verdikdə, o mövzuda tədqiqat aparar, diqqətlə düşünər, yazdıqlarında ciddiyyət göstərər, təkrar-təkrar nəzərdən keçirər. Amma bu əsnada taledə hazır olan kitabı mərhələ-mərhələ hazırlayar və hər mərhələ də taledə artıq məlumdur. Qapının zənginin çalındığını eşitdikdə də əlindəki işi qoyar və qalxıb qapını açar. Amma bunların hamısı taleyində müəyyən edilmiş hadisələrdir. Allah ayələrində insanların etdikləri hərəkətləri yaradanın və o hərəkətlərin əsil sahibinin Özü olduğunu belə bildirir:

**Onları siz öldürmədiniz, Allah onları öldürdü. (Düşmənlərin gözünə bir ovuc torpaq) atdığın zaman sən atmadın, Allah atdı ki, möminləri Öz tərəfindən yaxşı bir sınaqdan keçirtsin. Həqiqətən, Allah Eşidəndir, Biləndir. (Ənfal surəsi, 17)**

**Axı sizi də, sizin düzəltdiklərinizi də Allah yaratmışdır. (Saffat surəsi, 96)**

Əgər bir insan Quranda izah edilən bu həqiqətləri anlamazlıqdan gəlib -və ya qəsdən öz ağlına görə taleni sınamaq üçün- döyülən qapını açmaz, ya da yazmalı olduğu kitabı yazmazsa, əslində yenə taleyində olan şeyi yaşayar. Ya da bu insan, "taleyimdə varsa sağalacam" deyərək xəstəliyi üçün lazım olan dərmanları almayıb, sağlamlığına diqqət etməzsə, elə bu ağılsız hərəkəti etmək də o insanın taleyindədir. Eyni şəkildə tale həqiqətini inkar edən bir insan da taleyində olduğu üçün inkar edər.

O halda ağıl və vicdan sahibi hər insan Allahın imtahanın bir gərəyi olaraq özünə verdiyi bu hissə uyğun şəkildə davranmalı, hər mövzuda əlindən gələn səyi göstərməli, ancaq bütün səyinin və əldə etdiyi nəticələrin də Allah qatında əvvəldən yaşanmış, görülmüş və nəticələnmiş hadisələr olduğunu bilməlidir. Allah Quranda hz. Yaqubun oğullarına tövsiyəsini insanlara bu mövzuda nümunə olaraq vermişdir:

**O dedi: "Ey oğullarım! Şəhərə bir qapıdan girməyin, ayrı-ayrı qapılardan girin. Allahın iradəsinə qarşı isə heç bir şeylə sizə fayda verə bilmərəm. Hökm yalnız Allahındır. Mən ancaq Ona təvəkkül edirəm. Qoy təvəkkül edənlər də ancaq Ona təvəkkül etsinlər". (Yusif surəsi, 67)**

Yuxarıdakı ayədə göründüyü kimi, hz. Yaqub oğullarına təhlükəsizlikləri üçün bir tədbir almalarını nəsihət edir, ancaq bunun ardınca bu tədbirin Allahın dilədiyi hadisənin reallaşmasının qarşısını ala bilməyəcəyini də xatırladır. Əslində hz. Yaqubun bu nəsihəti, oğullarının bu nəsihətə əməl etmələri və bunun nəticəsində qarşılaşacaqları hadisələrin hamısı da Allah qatında əvvəldən yaşanmış hadisələrdir. Növbəti ayədə isə alınan tədbirin Allahın təqdirini dəyişdirmədiyi belə bildirilir:

**Atalarının onlara əmr etdiyi yerlərdən daxil olmalarının Allahın yanında onlar üçün heç bir faydası olmadı, lakin bu, Yaqubun nəfsindəki bir istək idi ki, onu da yerinə yetirdi. Həqiqətən də, o, elm sahibi idi, çünki onu Biz öyrətmişdik. Lakin insanların çoxu bunu bilmir. (Yusif surəsi, 68)**

Ayədə də bildirildiyi kimi, insan Allahdan gələcək hər hansı bir şeyin qarşısını almaq gücünə sahib deyil. Ancaq ibadət olaraq, Allahın razılığını axtararaq aldığı tədbirləri Allah vəsilə edər və o insanı ən xeyirli nəticəyə çatdırar.

Nəticədə, Allaha və Allahın yaratdığı taleyə təslim olmuş bir insan ilə bu həqiqəti qavraya bilməyən bir insan arasındakı fərq budur: təslimiyyətli insan özü etdiyi hissini yaşamasına baxmayaraq bunların hamısını Allahın diləməsi ilə etdiyinin şüurundadır. Digəri isə, hər etdiyini öz ağlı və gücü ilə etdiyini zənn edərək yanılır. Əslində isə Allahın bir ayəsində bildirdiyi kimi, **"Allahın əmri əzəldən müəyyən edilmiş bir hökmdür". (Əhzab surəsi, 38)**

# HƏQİQİ HÜZUR VƏ XOŞBƏXTLİYİN QAYNAĞI ALLAHA VƏ TALEYƏ TƏSLİM OLMAQDIR

Daha əvvəl də vurğuladığımız kimi insanların karma kimi fəlsəfələrə maraq duymalarının səbəblərindən biri həyatlarındakı çətinliklərdən, narahatlıqlardan, bədbəxtliklərdən xilas olmaq istəyidir. Bir çox insan bunun üçün özünə görə bəzi yollar və üsullar sınayar. Halbuki, əsil xoşbəxtliyin və dincliyin tək qaynağı insanın özünü yoxdan yaradan, özünə heç nə ikən can verən, saysız nemətlə ruzi verən, sonsuz mərhəmət və şəfqət sahibi, yaxşılığın qarşılığını yaxşılıq olaraq verən, qoruyucu və mərhəmətli, hər şeyi xeyir və ədalətlə yaradan Allaha təslim olması, Onun sərhədlərini qoruması və həyatının hər anında Onun razılığını axtarmasıdır.

Allah bütün kainatdakı canlı və cansız hər varlığın tək Hakimi, tək Yaradıcısı və bütün kainatdakı tək Gücdür. Bütün qüvvələr, bütün ordular, insanlar, qruplar Allaha aiddir və qəbul etsələr də, etməsələr də hamısı Allaha boyun əymişdir. Allah bir ayəsində bu həqiqəti belə bildirir:

**Yoxsa onlar Allahın dinindən başqa bir din axtarırlar? Halbuki göylərdə və yerdə olan hər bir məxluq istər-istəməz Ona təslim olmuş və Ona da qaytarılacaqdır. (Ali İmran surəsi, 83)**

Bütün kainatın tək hakimi olan Allaha təslim olan, Onu özünə tək vəkil və tək dost tutan, Ona könüldən sevgi, itaət və hörmət dolu bir qorxu ilə boyun əyən hər insan bütün kainatdakı yeganə qurtuluş yolunu tapmışdır. Çünki Allah hər şeyin üstündə güc sahibi olandır. Rəbbimizin ucalığı və üstünlüyü bir ayədə belə bildirilmişdir:

**Allah, Ondan başqa ibadətə layiq olan məbud yoxdur, əbədi Yaşayandır, bütün yaratdıqlarının Qəyyumudur. Onu nə mürgü, nə də yuxu tutar. Göylərdə və yerdə nə varsa, Ona məxsusdur. Onun izni olmadan Onun yanında kim havadarlıq edə bilər? O, məxluqatın gələcəyini və keçmişini bilir. Onlar Onun elmindən, Onun istədiyindən başqa heç bir şey qavraya bilməzlər. Onun Kürsüsü göyləri və yeri əhatə edir. Bunları qoruyub saxlamaq Ona ağır gəlmir. O, Ucadır, Uludur. (Bəqərə surəsi, 255)**

Quranda Allahın böyüklüyünün və ucalığının izah edildiyi bu ayədən sonra insanın Allaha yönəldiyi halda "qopmayan bir dəstəkdən" yapışmış olacağı belə bildirilir:

**Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir. Hər kəs tağutu inkar edib Allaha iman gətirərsə, heç vaxt qırılmayan ən möhkəm dəstəkdən yapışmış olar. Allah Eşidəndir, Biləndir. Allah iman gətirənlərin Himayədarıdır, onları zülmətlərdən nura çıxarır. Kafirlərin dostları isə tağutlardır, onları nurdan zülmətə salarlar. Onlar Od sakinləridirlər və orada əbədi qalacaqlar. (Bəqərə surəsi, 256-257)**

İnsanların böyük bir hissəsi bu həqiqətin fərqində olmadıqları üçün özlərinə əslində heç bir şeyə gücü çatmayan aciz varlıqları vəli və dost tutarlar, bu varlıqlara arxalanıb güvənərlər. Bu isə ömür boyu qorxu və narahatlıq içində yaşamalarına, özlərini təhlükədə hiss etmələrinə səbəb olar.

Məsələn, bir insan düşünək. Bu insan hüquqi bir problem yaşadığında onu müdafiə etməsi üçün vəkil tutacaq. Vəkili bütün hüquqi mövzuları ondan çox yaxşı bildiyi üçün ona güvənəcək və vəkalətini bu adama verəcək. Vəkilinin bacarıqlarına güvəndiyi və ondan əmin olduğu müddətcə iddiası ilə əlaqədar mövzularda ürəyi rahat olacaq. Halbuki, hüquqi mövzularda məlumat sahibi olmadığı halda, bir vəkilə güvənməyib, belə bir məsuliyyəti öz boynuna götürərsə lazımsız yerə böyük çətinlik və sıxıntı ilə qarşılaşacaq. Xəstə bir insan da özünü həkiminə böyük bir ürək rahatlığı ilə əmanət edər. Həkimi nə desə edər, sözünə qulaq asar. Həkiminin işində bacarıqlı olduğuna güvəndiyi müddətcə, özü üçün başqa bir dərman və ya müalicə axtarmaz. Bunlar bir insanın xüsusiyyətlərindən ötrü başqa bir insana qarşı duyduğu təslimiyyət və güvən duyğusunun bir nümunəsidir. İnsanın güvəndiyi bir varlığa olan təslimiyyəti böyük bir hüzur, rahatlıq və güvən qaynağıdır. Allaha olan güvən və təslimiyyət isə, buradakı nümunələrlə müqayisə edilməyəcək qədər böyük və əhəmiyyətlidir.

Allaha təslim olan bir insan həyatı boyunca Onun qarşısına çıxardığı hər hadisədən, hər görüntüdən, hər danışıqdan razı olar. Heç bir hadisə qarşısında "bu haradan çıxdı?" deməz, başına gələn bir çətinliyin ardından ağzından "kaş ki" sözü çıxmaz. Çünki başına gələn hər hadisəni güvənərək təslim olduğu, ədalətindən, mərhəmətindən və şəfqətindən əmin olduğu Rəbbimizin yaratdığını bilər. Allaha təslimiyyət insanların hidayətlərinə vəsilə olan çox əhəmiyyətli bir mövzudur. Bəzi Quran ayələrində təslimiyyətin əhəmiyyəti belə izah edilir:

**Əgər onlar səninlə mübahisə edərlərsə, de: "Mən özümü ardımca gələnlərlə birlikdə Allaha təslim etmişəm!" Kitab verilənlərə və savadsızlara isə de: "Siz də təslim oldunuzmu?" Əgər təslim olsalar, doğru yola yönəlmiş olarlar. Üz döndərsələr, bil ki, sənin öhdənə düşən ancaq haqqı təbliğ etməkdir. Allah qullarını görür. (Ali İmran surəsi, 20)**

**Yaxşı əməl sahibi olub özünü Allaha təslim edən şəxs ən möhkəm dəstəkdən yapışmış olar. Bütün işlərin sonu Allaha qayıdır. (Loğman surəsi, 22)**

Allaha təslim olmayıb öz ağıllarına güvənən və özlərini Allahdan müstəqil, azad varlıqlar olaraq görənlər isə həyatları boyunca çətinlik və əzab içində yaşayarlar. Hər hansı bir istəkləri reallaşmadığı vaxt dərhal ümidsizliyə qapılar və məyus olarlar. Halbuki, Allahın hər şeyi taledə ən xeyirlisi ilə yaratdığını bilsələr, özlərinin bilmədiyini Allahın bildiyini düşünsələr, heç bir hadisə onlarda kədər və sıxıntı meydana gətirməz. Məsələn, gedəcəyi yerə yubanan və ya heç çata bilməyən bir insan bunun sıxıntısını günlərlə yaşayar. Allaha təslim olan bir insan isə, "Demək ki, getməməkdə bir xeyir varmış. Allah mənim üçün ən xeyirlisini diləmişdir" deyərək ən kiçik sıxıntı hiss etməz. Belə insanlar üçün dünyada da, axirətdə də kədər və qorxu olmayacağını Allah ayələrində belə bildirir:

**Həqiqətən də: "Rəbbimiz Allahdır!" – deyib sonra düz yol tutanlara heç bir qorxu yoxdur və onlar kədərlənməyəcəklər. Onlar Cənnət əhlidirlər və etdikləri əməllərin əvəzi olaraq orada əbədi qalacaqlar. (Əhqaf surəsi, 13-14)**

**Şübhəsiz ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. Onlar iman gətirmiş və Allahdan qorxmuşlar. Dünya həyatında da, axirətdə də onlara müjdə vardır. Allahın kəlmələri əsla dəyişilməz. Bu, böyük uğurdur. (Yunis surəsi, 62-64)**

## Allah yaxşılıq edənlərə gözəl həyat bəxş edər

Allaha və Onun təqdir etdiyi taleyə təslim olmağın insanlara qazandıracağı hüzur və xoşbəxtliklə yanaşı, Allah Özünə iman edənləri və gözəl işlər görənləri dünyada da gözəl bir həyatla yaşadacağını vəd etmişdir:

**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 97)**

**... Bu dünyada xeyirli işlər görənlər üçün gözəl mükafat hazırlanmışdır. Axirət yurdu isə daha xeyirlidir. Müttəqilərin yurdu necə də gözəldir! (Nəhl surəsi, 30)**

Bu həyatın içində bir çox gözəlliklər var. Məsələn, gözəl bir həyat üçün insanın güvənəcəyi, birlikdə əsil sevgi və yaxınlığı yaşayacağı dostları olmalıdır. Allah səmimi olaraq iman edən qullarını yenə özləri kimi etibarlı, təmiz, Allahın dostu olan möminlərlə dəstəkləyər. Bu səbəblə, müsəlman heç zaman yalnız qalmaz. Daima yanında çox sevdiyi, hörmət etdiyi, öz nəfsindən üstün tutduğu, güvəndiyi mömin qardaşları olar ki, bu, Allahın bir müsəlmana verdiyi ən gözəl nemətlərdən biridir.

Cahil insanların, yəni Quran əxlaqından kənar əxlaq yaşayanların ən böyük çətinliklərindən biri isə, ağlına və səmimiyyətinə güvənə biləcəkləri, hər şəraitdə özlərinə dəstək olacaq, mənfəət üçün deyil, səmimi duyğularla dost olacaq yaxın kimsə tapa bilməmələridir.

Quran əxlaqından uzaq insanların arasındakı dostluq münasibətlərində mütləq mənfəətə əsaslanan tərəf olar. Belə dostluqlarda insan maddi və ya mənəvi bir çətinliklə qarşılaşsa yanında heç kimi tapmaya bilər. Ancaq müsəlmanların dostluğunda bu əsla olmaz. Müsəlmanlar özləri ehtiyac içində olsalar belə, digər müsəlmanların ehtiyaclarını birinci yerinə yetirəcək qədər üstün əxlaq sahibidirlər. Allah möminlərin bu gözəl əxlaqını bir ayəsində belə bildirir:

**Mühacirlərdən əvvəl Mədinədə yurd salmış, sonra da iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır. (Həşr surəsi, 9)**

Bir mömin Allahın anılmadığı, insanların taleyə üsyan etdikləri, boş danışıqların olduğu mühitlərdən xoşlanmaz. Bu səbəblə, Allah möminləri bir-birləri ilə dəstəkləyər. Onlar daim Allahı anar, Allahın yaratdığı gözəlliklərdən zövqlə bəhs edər, nemətlərinə şükür edərlər. Hər söhbətlərində hikmət, sevinc, ağıl və gözəllik olar. Bu söhbətlərdə heç vaxt pessimizm, ümidsizlik, həlledilməzlik olmaz. Əksinə həmişə xoş xəbər verən, dinləyənin içini aydınladan, üfüqünü genişlədən, sərhədsiz düşünməsinə səbəb olan, rahatlıq verən söhbətlər olar. Kimsə kimsəni incitməz, iynələyici danışmaz, qısqanclıq etməz, lağ etməz. Əsil dostluq, sevinc və sevgi yaşanar.

Gözəl bir həyatın digər bir xüsusiyyəti isə, təmiz, sağlam, rahat mühitlərdə yaşamaqdır. Müsəlmanlar daim ən təmiz, ən sağlam olanı seçərlər. Cahil insanların olduqları mühitlər isə ümumiyyətlə çirkli, dağınıq, ürək sıxıcıdır. Hətta əylənmək üçün belə xarabalıq, qaranlıq, dumanlı yerləri seçərlər. Halbuki, insanın ruhu cənnətdəki təmizlikdən və gözəllikdən zövq alacaq şəkildə yaradılmışdır.

Allah möminlərə dünyada xoş güzəran və bolluq da verər. Quranda bildirildiyi kimi, hz. Məhəmməd, hz. Süleyman, hz. Yusif, hz. İbrahim özlərinə bolluq və mülk verilən peyğəmbərlərdəndir. Məsələn, Allah hz. Məhəmmədə **"Kasıb olduğun zaman səni varlandırmadımı?" (Duha surəsi, 8)** deyərək, onu zəngin etdiyini bildirir. Allah hz. Yusifi Misirin xəzinədarı etmişdir. Hz. Süleyman isə, heç kimin çata bilmədiyi bir zənginliyə sahib olmaq üçün Allaha dua etmiş və Allah da duasını qəbul etmişdir.

Allah saleh möminləri də Öz lütfü ilə zəngin edəcəyini bir ayəsində belə bildirir:

**... Əgər onlar kasıbdırlarsa, Allah öz lütfü ilə onları varlı edər. Allah lütfü ilə Genişdir, Biləndir! (Nur surəsi, 32)**

Allah möminlərə lütf edərək zəngin edər, ancaq möminlər, heç bir zaman dünya nemətlərinin arxasınca qaçmazlar. Onların tək istəkləri Allahın razılığına, rəhmətinə və sonsuz nemətlərlə bəzənmiş cənnətinə qovuşmaqdır. Bu səbəblə də, Allahın onlara verdiyi nemətləri və zənginliyi, yenə Allah rizası üçün ən xeyirli şəkildə xərcləyərlər. Həm israf etməz, həm ehtiyacı olanları qoruyar və bu nemətlərdən yararlandırar, həm də sahib olduqları hər şeyi Quran əxlaqının yayılması üçün ən gözəl şəkildə istifadə edərlər.

İnkar edənlər isə, iman edənlərin tam əksinə, böyük bir sıxıntı və əzab içində yaşayarlar. Bu insanlar zəngin olsalar və ya dünyəvi mənada istədikləri hər şeyə sahib olsalar da, Allah onların ürəklərinə sıxıntı verər:

**Allah kimi doğru yola yönəltmək istəsə, onun köksünü İslam üçün açar, kimi azdırmaq istəsə, onun köksünü, sanki o, göyə çıxırmış kimi daraldar və sıxıntılı edər. Allah iman gətirməyənləri beləcə cəzalandırar. (Ənam surəsi, 125)**

Allah başqa bir ayəsində isə, Özünə uyanların xoşbəxt olacaqlarını və digərlərinin isə sıxıntılı bir həyat yaşayacaqlarını belə bildirir:

**Kim Mənim Zikrimdən üz döndərsə, onun güzəranı sıxıntılı olacaq və Biz Qiyamət günü onu kor kimi hüzurumuza gətirdəcəyik". (Taha surəsi, 124)**

Bir insanın həm dünyada, həm də axirətdə gözəl bir həyat yaşamasının tək yolu Allahı sevməsi, Ondan qorxub çəkinməsi, Onu özünə dost tutması və Onun Quranda bildirdiyi sərhədləri qorumasıdır. Karma kimi Qurandan kənar batil inanclar insanların xoşbəxtlikləri və gözəl bir həyat yaşamaları üçün həqiqi həll yolu ola bilməz. Allah insanları sıxıntıdan qurtaranın Özü olduğunu bildirir:

**De**: **"Ondan və bütün başqa sıxıntılardan sizi Allah xilas edir. Sonra siz yenə də şərik qoşursunuz". (Ənam surəsi, 64)**

# KARMA ƏDALƏTİ TƏMİN EDƏ BİLMƏZ, ƏSİL ƏDALƏT SAHİBİ OLAN ALLAHDIR

Hind dinlərində karma fəlsəfəsinin səbəb-nəticə qanunu olduğuna və insanlara etdiklərinin qarşılığını verənin bu qanun olduğuna inanılır. Yəni bu qanunu təyin edən və tətbiq edən bir Yaradıcının varlığı qəbul edilməz. Karma qanununun öz-özünə işlədiyinə inanılır. Məsələn, xeyriyyə qurumlarına maddi yardım edən bir insanın bu hərəkətinin nəticəsinin digər həyatındakı xoşbəxtlik olacağı qəbul edilir. [6] Amma təbii ki, bunu təşkil edən bir güc və iradə olmadan belə metafizik bir qanun mövcud ola bilməz.

Karma fəlsəfəsinin insan ağlına ən zidd istiqamətlərindən biri, "bir əxlaqi dəyərin özbaşına, bir qanun tətbiq edən olmadan işlədiyinə" inandırmağa çalışmasıdır. Halbuki, insanların özlərinin hazırladığı qanunları belə icra etdirən təşkilatlar və orqanlar var. Məsələn, bir oğrunun alacağı cəza hər ölkənin öz qanunlarına görə təyin olunmuşdur. Ancaq bu qanunlar heç bir zaman özbaşına işləməz, mütləq bunları icra etdirən orqanlar, təşkilatlar, səlahiyyətli kəslər vardır. Məsələn, bir insan oğurluq etdiyində o qanun təbii olaraq işləməyə başlayaraq o oğrunu təbii olaraq həbsə atmaz. Bunun üçün polis, hakim, prokuror və məhkəmələr qanunları icra edərlər. Hakimlər qanunlara görə ədalətlə hökm verər və günahkar adam etdiyinin qarşılığı olan cəzanı alar.

Karmanın özbaşına işləyən bir qanun olduğunu iddia etmək isə, bir ölkənin qanunlarının öz-özünə, heç bir icra orqanı olmadan işlədiyini söyləməkdən çox daha məntiqsizdir. Düşünün ki, bu məntiqə görə dünyada bu günə qədər yaşamış olan milyardlarla insan dünya həyatında hər nə edirsə bunun tam qarşılığı olan bir həyatı əldə edəcək. Yaxşı, elə isə, bir insanın bu dünyadakı rəftarlarını kim müşahidə edəcək, onun yaxşı yoxsa pis olduğuna kim qərar verəcək və buna görə onun bundan sonrakı həyatını indiki həyatına görə kim təyin edəcək? Əgər bir insanın gələcəkdəki həyatı bu həyatına görə müəyyənləşirsə, bu həyatı təyin edən, hazırlayan, o insan üçün bir tale təsbit edən bir güc mütləq mövcud olmalıdır. Ancaq, karma inancında belə bir gücə inanılmaz. Bu ağıl və məntiqdən kənar inancda, "Karma qanunu" deyilən, nə olduğu məlum olmayan bir anlayışın bütün bunları öz-özünə sistemləşdirdiyinə inanılar. Üstəlik, qərar və hökm vermə gücü olmayan bu anlayışın, insanlara ədalətlə davrandığı, hər kəsə etdiyinin qarşılığını tam olaraq, əksiksiz, unutmadan və yanılmadan verdiyi düşünülər. Bunlar ağıl sahibi insanların, bir az belə düşündüklərində məntiqsizliyini dərhal görə biləcəkləri son dərəcə batil iddialardır.

Digər tərəfdən, karmaya inanan insanların bir qismi də daha əvvəlki inancları istiqamətində xəyali "Karma qanunu"nun Allahın iradəsi ilə işlədiyini inanarlar. Yəni, bu düşüncəyə görə bir insanın bu dünyadakı karmasının yaxşı yoxsa pis olduğuna Allah qərar verər və buna görə digər həyatındakı şərtlərini hazırlayar. Ancaq bu insanların unutduğu əhəmiyyətli bir həqiqət vardır: Allahın insanlar üçün seçdiyi və Quran vasitəsi ilə bildirdiyi haqq dində karma inancı yoxdur. Bu kitab boyunca da izah edildiyi kimi, karma Quranda yer almayan, İslam inancı ilə ziddiyyət təşkil edən bir çox xüsusiyyətə sahib batil bir inancdır. Bu səbəbdən, Allahın varlığına inanan insanların batil inancların, xurafatların arxasından getməmələri, Qurana möhkəm sarılmaları lazımdır.

## Yaxşılıqların qarşılığını verən sonsuz ədalət sahibi olan Allahdır

Allahın varlığına inanan, ağlı və vicdanı ilə düşünən hər insan ədaləti təmin edən, hər insana dünya həyatı boyunca etdiklərinin qarşılığını əksiksiz ödəyənin karma qanunu deyil; hər şeyi hər an görən, hər kəsin ən gizlisini bilən, üstün və güclü, bütün kainatın hakimi olan Allah olduğunu bilir.

Allah bir çox ayəsində yaxşılıqların və pisliklərin qarşılığını əskiksiz olaraq verənin Özü olduğunu bildirir:

**Kim yaxşılıq gətirərsə, ona gətirdiyinin on qat əvəzi verilər. Kim pislik gətirərsə, ona ancaq gətirdiyinin misli qədər cəza verilər. Onlara haqsızlıq edilməz. (Ənam surəsi, 160)**

**Səbir et! Həqiqətən, Allah yaxşı iş görənlərin mükafatını puç etməz. (Hud surəsi, 115)**

**... Kim Allahdan qorxsa və səbir etsə, bilsin ki, Allah yaxşı iş görənlərin mükafatını puç etməz". (Yusif surəsi, 90)**

Allah hər insanın etdiklərinin qarşılığını həm dünyada, həm də axirətdə ən ədalətli şəkildə verər. Məsələn, Allah yaxşı insanlara qarşı mübarizə apararaq, onlara çətinlik törədənləri dünyada da, axirətdə də cəzalandıracağını bildirir. Allah sonsuz ədaləti ilə həm pislik edənləri cəzalandırar, həm də onların yaxşılara qurduqları tələləri pozar, işlərini çətinləşdirər, onlara çətin və sıxıntılı bir həyat yaşadar. Yaxşılıq edənləri isə dünyada da qoruyar, onlardan pislikləri uzaq tutar, çətinlikləri onlar üçün asanlaşdırar, onlara gözəl bir həyat vəd edər. Allah bu həqiqəti Quran ayələrində belə bildirir:

**Allah əmin-amanlıq yurduna (Cənnətə) çağırır və istədiyini doğru yola yönəldir. Yaxşı iş görənlər üçün ən yaxşısı (Cənnət) və bundan da üstünü (Allahı görmək) vardır. Onların üzünü nə bir qubar, nə də bir zillət bürüyər. Onlar Cənnət sakinləridirlər və orada əbədi qalacaqlar. (Yunis surəsi, 25-26)**

**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq. (Nəhl surəsi, 97)**

**Kim haqqını verir və Allahdan qorxursa, və ən gözəl olanı (lə ilahə illəllahı) təsdiq edirsə, Biz onu ən asan olana nail edəcəyik. Kim də xəsislik edərək Rəbbinə**

**ehtiyacı olmadığını güman edirsə və ən gözəl olanı (lə ilahə illəllahı) yalan hesab edirsə, Biz onun üstünə ən çətin olanı yükləyəcəyik. (Leyl surəsi, 5-10)**

Yaxşı və pis insanın dünya həyatı boyunca etdiklərinin qarşılığını tam olaraq alacaqları vaxt isə hesab günüdür.

## Allahın sonsuz ədaləti hesab günündə təcəlli edəcək

Karma inancının iddiasına görə hər insan etdiyinin qarşılığını bundan sonrakı həyatında alar. Məsələn, pislik edən bir insan bundan sonrakı həyatında bir bitki olaraq və ya kölə olaraq doğular. Yaxşılıq edən, yardım edənlər isə yeni həyatlarında zəngin və ya məqam sahibi insanlar olarlar. Halbuki, daha əvvəl də qeyd etdiyimiz kimi bu, həm yaxşılıqların və pisliklərin tam qarşılığı deyil, həm də insanlar dünyaya dəfələrlə gəlməzlər. Yalnız bir dəfə dünyaya gəlinər və dünya həyatından sonra sonsuza qədər davam edəcək olan axirət həyatı, yəni insanın əsil həyatı vardır.

Hər insan ölümündən sonra hesab günü gəldiyində dirildiləcək və dünya həyatında etdiklərindən sorğu-sual olunacaqdır. Bu sorğu-sual zamanı isə, həyatı boyunca hər etdiyi, hər danışdığı və hər düşündüyü tək-tək önünə gələcək, əlinə verilən kitabda elə bir şey yoxdur ki, olmasın. Hətta iman etməyənlərin o gün önlərinə kitabları qoyulduqda yaşayacaqları heyrət bir ayədə belə bildirilir:

**Hər kəsin kitabı qarşısına qoyulacaq və sən günahkarların orada yazılmış olanlardan qorxduqlarını görəcəksən. Onlar deyəcəklər: "Vay halımıza! Bu necə bir kitab imiş! O nə bir kiçik, nə də bir böyük günahı buraxmadan hamısını sayıb yazmışdır!" Onlar etdikləri əməlləri öz qarşılarında görəcəklər. Rəbbin heç kəsə haqsızlıq etməz! (Kəhf surəsi, 49)**

İnsanların bütün dünya həyatından sorğu-sual olunduqları bu hesab günündə heç bir insan ən kiçik bir haqsızlığa belə məruz qalmadan etdiklərinin qarşılığını görəcək. Allah bunu bir ayəsində belə bildirir:

**Biz qiyamət günü ədalət tərəziləri ilə haqq-hesab çəkəcəyik. Heç kimə hər hansı bir şeydə ədalətsizlik edilməyəcəkdir. Görülmüş iş bir xardal dənəsi mislində olsa belə, onu gətirib tərəziyə qoyacağıq. Biz haqqı araşdırmağa bəs edərik. (Ənbiya surəsi, 47)**

## Yaxşılıq edənlər cənnət ilə, pislik edənlər isə cəhənnəm ilə etdiklərinin qarşılığını alar

Ölümlərindən sonra dirildilən insanlar Allahın ədaləti ilə sorğu-sual olunduqdan sonra sonsuza qədər qalacaqları əsil məkanlarına, cənnət və ya cəhənnəmə gətiriləcəklər. Hər insanın etdiyinin qarşılığını ala bilməsi üçün cənnət və cəhənnəm də dərəcə dərəcədir:

**Kim Rəbbinin hüzuruna günahkar kimi gələrsə, cəhənnəmlik olar. O, orada nə ölər, nə də yaşayar. Kim Onun hüzuruna yaxşı əməllər etmiş bir mömin kimi gələrsə, onlara ən yüksək dərəcələr nəsib olar –ağacları altından çaylar axan Ədn bağları. Onlar orada əbədi qalarlar. Bu, günahlardan təmizlənənlərin mükafatıdır. (Taha surəsi, 74-76)**

**Belələri o kəslərdir ki, onlardan əvvəl gəlib-getmiş cin və insanlardan ibarət olan xalqlar haqqındakı Söz onların barəsində də gerçəkləşmişdir. Həqiqətən də, onlar ziyana uğrayanlardır. Hamının etdiyi əməllərə görə dərəcələri vardır ki, Allah onlara əməllərinin əvəzini versin. Onlara əsla zülm edilməz. Kafirlər Odun qarşısına gətiriləcəkləri gün onlara deyiləcəkdir: "Siz dünya həyatınızda pak nemətlərinizi sərf edib qurtardınız və onlardan zövq aldınız. Bu gün isə siz yer üzündə haqsız olaraq təkəbbür göstərdiyinizə və asi olduğunuza görə alçaldıcı əzabla cəzalandırılacaqsınız!" (Əhqaf surəsi, 18-20)**

Hər insana ən kiçik bir haqsızlıq edilmədən bütün əməllərinin tam qarşılığını vermək ancaq Allaha məxsus bir xüsusiyyətdir. Allah hər şeyi görən və bilən, bağışlayan, mərhəmət edən, heç bir şeyi unutmayan, heç bir zaman yanılmayan və ədalətli olandır.

## Allah hər şeyi bilən, görən və eşidəndir

Yer üzündə olan hər şey Allahın məlumatı daxilindədir. Buna, yerə düşən tək bir yarpaqdan, bir insanın ağlından keçirdiyi düşüncələrə qədər hər şey daxildir. Allah bir ayəsində belə bildirir:

**Qeybin açarları Onun yanındadır, Onları yalnız O bilir. O, quruda və dənizdə nələr olduğunu bilir. Onun xəbəri olmadan yerə düşən bir yarpaq belə yoxdur. Yerin qaranlıqlarında elə bir toxum, elə bir yaş və elə bir quru şey yoxdur ki, açıq-aydın Yazıda (Lövhi-Məhfuzda) olmasın. (Ənam surəsi, 59)**

Məsələn, iki adam aralarında gizli bir söhbət etdiklərində bunun yalnız öz aralarında qaldığını zənn edərlər. Halbuki, o anda onların yanında Allah vardır. Onların gizli danışıqlarını, hər cür gizli söhbətlərini Allah eşidir və bilir. Ancaq, Allahın varlığından qafil olan insanlar gizli söhbətlər əsnasında pislikləri hazırlayarkən, bunların gizli qalacağını və heç bir zaman

bilinməyəcəyini, bu səbəbdən, bu pislik planları ucbatından bir qarşılıq görməyəcəklərini zənn edərlər. Halbuki, Allah onları hər an görür və eşidir:

**Məgər anlamırdılar ki, Allah onların sirlərindən də, xəlvəti danışıqlarından da agahdır və Allah qeybləri biləndir? (Tövbə surəsi, 78)**

Hər şeyi bilən və görən Allah hesab günündə insanlara etdiklərinin əvəzini verərkən, onların gizli qaldığını sandıqları davranış və düşüncələrini də ortaya çıxaracaq. Allah gizlidən daha gizli olanları da bildiyini Quranda insanlara belə bildirir:

**Göylərdə, yerdə, onların arasında və torpağın altında nə varsa, Ona məxsusdur. Sən ucadan danışsan da, danışmasan da, fərqi yoxdur. Çünki Allah sirri də, bundan daha gizli olanı da bilir. (Ta ha surəsi, 6-7)**

Hesab günündə heç bir şeyin Allahdan gizli qalmayaraq ortaya çıxacağı və Allahın hər kəsə ədalətlə qarşılığını verəcəyi isə belə bildirilir:

**Ən yüksək dərəcələrin və Ərşin sahibi Odur. O Öz əmri ilə vəhyi qullarından istədiyinə nazil edir ki, o, insanları Görüş günü ilə qorxutsun. O gün insanlar yer üzünə çıxacaq və onların heç bir şeyi Allahdan gizli qalmayacaqdır. Allah deyəcək: "Bu gün hökm kimə məxsusdur? Tək olan, hər şeyə Qalib Gələn Allaha!" Bu gün hər kəsə qazandığının əvəzi veriləcəkdir. Bu gün haqsızlıq olmaz. Şübhəsiz ki, Allah tez haqq-hesab çəkəndir. (Mömin surəsi, 15-17)**

Ədalətlə hökm vermək üçün o insan və hadisələr haqqında görünən və görünməyən bütün təfərrüatları bilmək lazımdır. Məsələn, bir insanın o hərəkəti hansı niyyətlə etdiyi, heç kimin görmədiyi yerlərdə və zamanlarda nə düşündüyü və nə etdiyi kimi hər şey bilinməli və ona görə qərar verilməlidir. Hər şeyi bilən, qeybi görən yalnız Allahdır. Bu səbəblə, insanlar arasında mütləq ədalətlə hökm edə biləcək olan yalnız Allahdır. Allahın Xəbir, yəni hər şeyin iç üzündən, gizli tərəflərindən xəbərdar olan olduğu bir ayədə belə bildirilir:

**Ey iman gətirənlər! Allahdan qorxun! Hər kəs sabahı üçün nə etdiyinə baxsın. Allahdan qorxun! Həqiqətən, Allah nə etdiklərinizdən xəbərdardır. (Həşr surəsi, 18)**

Karma inancı kimi hər hansı bir ağıla, şüura, gücə sahib olmayan, yalnız insanlar tərəfindən bu cür adlandırılaraq "uydurulan" xəyali bir qanunun isə "gizlinin gizlisini bilmək", "xəlvəti danışıqları eşitmək" kimi yalnız Allaha aid xüsusiyyətlərə sahib olmadığı aydındır. Yalnız insanların uyduraraq adlandırdıqları bir anlayışın hər hansı bir güc və iradəyə sahib olması gözlənilə bilməz. Bunun əksini söyləmək, son dərəcə axmaq və məntiqsiz bir iddiadır. Bu, hər hansı bir insanın öz-özünə bir anlayış çıxarıb, sonra bu anlayışın insanlar arasında ədalət yayacağını, bu anlayışın dünyada müharibələrə son verəcəyini, bu anlayışı hər gün təkrar edən insanların bir gün zəngin olacağını iddia etməsi ilə eynidir. Bunlar tamamilə batil inanclardır və

heç bir tutarlı cəhəti yoxdur. Bir yerdə ədalət olması üçün, o ədaləti təmin edən bir iradə olmalıdır. Karma isə, yalnız bir söz, fəlsəfədir. Bir az düşünüldükdə belə, karma fəlsəfəsinin nə qədər ağıl və məntiqdən kənar bir inanc olduğu görünəcək.

## Allah heç bir şeyi unutmaz və yanılmaz

Allah insanlar arasında ədalətlə hökm edərkən hər hadisəni, hər danışığı qiymətləndirər və ən doğru, ən xeyirli hökmü verər. Onsuz da bunların hamısını yaradan Özüdür. Ancaq bəzi səthi düşüncəyə sahib insanlar Allahın hər şeyi bildiyini və hifz etdiyini heç cür qavraya bilməzlər. Bu insanlara Quranda verilən nümunələrdən biri hz. Musa zamanında yaşayan Firondur. Hz. Musa Allahın hər insana doğru yolu göstərdiyini söylədiyində Firon böyük bir cahillik nümunəsi sərgiləyərək ilk nəsillərin vəziyyətinin nə olacağını soruşmuşdur:

**Musa dedi: "Rəbbimiz hər şeyə öz xilqətini verən, sonra da ona doğru yolu göstərəndir!" Firon dedi: "Bəs əvvəlki nəsillərin halı necə olacaq?" Musa dedi: "Onlar haqqındakı bilgi Rəbbimin yanında olan bir Kitabdadır. Rəbbim nə xəta edir, nə də unudur!" (Taha surəsi, 50-52)**

Allahın "xəta etməyən və unutmayan" olması, Allahın sonsuz ədaləti ilə birlikdə təcəlli edən xüsusiyyətlərindəndir. Məsələn, insan aciz və unutqan bir varlıq olduğu üçün dostunun etdiyi yaxşılığı və ya pisliyi unuda bilər. Ya da hadisələrin təfərrüatlarını səhv və ya əskik xatırlaya bilər. Bu isə, onun ədalətlə düşünməsinə, doğru qərar verməsinə çox vaxt mənfi istiqamətdə təsir edər. Halbuki Allah, Hafizdir. Yəni, "edilən işləri bütün təfərrüatlarına qədər yadında saxlayan"dır. Məsələn, bir insanın ibtidai məktəbə başladığı günkü hər vəziyyəti, hər danışığı, yerişi, rəftarı Allah qatında bütün canlılığı ilə, o günkü halının tam eynisi ilə hazır və canlı olaraq var və ya hz. İbrahim dövründə yaşamış bir cütçünün tarlasına ilk əkin əkdiyi günkü halı da Allahın yaddaşındadır. Hesab günündə də bütün bu təfərrüatlar, eyni yaşandıqları ilk günkü kimi canlı, həqiqətən yaşanaraq hazır olacaq.

Qısacası, Allah heç bir şeyi unutmaz və hər şey, hər an Rəbbimizin yaddaşında yaşanar. Bu səbəblə, hər insanın dünya həyatında bütün əməllərinin qarşılığını əskiksiz olaraq verər. Karma kimi xəyali bir anlayışın insanlara ədalət yaymasını gözləmək isə ağıl və məntiqdən kənar, batil bir inancdan başqa bir şey deyil.

## Allah çox mərhəmətli və bağışlayandır

Quranın bir çox ayəsində Allahın mərhəmətli, şəfqətli və qullarına qarşı bağışlayıcı olduğu bildirilir:

**Məgər Allahın quruda olanları və Öz əmri ilə dənizdə üzən gəmiləri sizə ram etdiyini görmürsənmi? Göyü də Öz izni olmadan yerə düşməsin deyə O tutub saxlayar. Həqiqətən, Allah insanlara Şəfqətlidir, Mərhəmətlidir. (Həcc surəsi, 65)**

**Bəli, sənin Rəbbin Qüdrətlidir, Rəhmlidir. (Şuəra surəsi, 9)**

**Kim pis bir iş görərsə və ya özü özünə zülm edərsə, sonra da Allahdan bağışlanma diləyərsə, Allahın Bağışlayan, Rəhmli olduğunu görər. (Nisa surəsi, 110)**

Sonsuz mərhəmət sahibi olan Allah tövbə etdikləri və davranışlarını düzəltdikləri təqdirdə qullarının günahlarını bağışlayar. Onların pis əməllərini yaxşı əməllərə çevirər və dünya həyatı boyunca onlara özlərini düzəltmələri üçün fürsət verər. Allah bir ayəsində, əgər insanları günahlarına görə dərhal cəzalandırsa, yer üzündə tək bir canlı belə qalmayacağını bildirir. Ancaq Allah qullarına vaxt verməklə onları imtahana çəkir və razılığını, rəhmətini və cənnətini qazanmaları üçün onların önünə saysız fürsət çıxarır. Bir ayədə Allahın insanlara bunun üçün vaxt verdiyi belə bildirilir:

**Əgər Allah insanları hər etdikləri zülmə görə cəzalandırsaydı, yer üzündə heç bir canlını sağ qoymazdı. Lakin Allah onlara müəyyən vaxta qədər möhlət verir. Onların əcəlinin çatdığı an bircə saat belə nə yubanar, nə də tezləşə bilər. (Nəhl surəsi, 61)**

Allaha iman edən, Allahın sonsuz ədalət və mərhəmət sahibi olduğunu bilərək Ona təslim olan hər insan axirətdə ən kiçik bir haqsızlığa belə məruz qalmadan bu dünyada etdiklərinin qarşılığını tam olaraq alacağını bilməyin hüzur və arxayınlığı ilə yaşayar.

Özlərinə yol göstərici olaraq karma inancı kimi haqq olan dindən kənar qanunlar, qaydalar, əfsanələr seçənlər isə çox böyük bir səhv içindədirlər. Özləri yaradılmış, heç bir şeyi yaratmağa güc çatdıra bilməyən, aciz varlıqların və ya insanların, ad verərək uydurduqları xəyali qanunların özlərinə nə dünyada, nə də axirətdə bir fayda verməyəcəyindən qəflətdədirlər. Bu anlayışların saxta bir ilah olduğunu və insanlar arasında ədalət yaymağa, insanları təkrar dirildərək onların həyatlarını təyin etməyə gücləri olmadığını gözardı edirlər. Bu kəslər bilməlidirlər ki, insanların tək yaradıcısı, hökm və hikmət sahibi olan Allahdır. Allah bir ayəsində belə bildirir:

**De: "Allah bu Kitabı sizə təfərrüatı ilə nazil etdiyi halda, mən Ondan başqasını mı hakim qəbul etməliyəm?" Kitab verdiklərimiz bilirlər ki, o, həqiqətən, sənin Rəbbin tərəfindən nazil edilmişdir. Odur ki, şübhə edənlərdən olma. (Ənam surəsi, 114)**

# ALLAHIN ƏN SON VƏ HEÇ DƏYİŞMƏYƏN VƏHYİ: QURAN

Daha əvvəl də ifadə edildiyi kimi insanların böyük bir hissəsi əslində dinin xüsusiyyətləri olan sevgi, sülh, əmin-amanlıq, dostluq, mərhəmət, şəfqət kimi xüsusiyyətləri haqq dindən kənar yollarda, məsələn, karma kimi fəlsəfələrdə axtararlar. Halbuki, bunlar batil və azğın inanclardan qaynaqlanan fəlsəfələrdir. İnsanın fitrətini, necə xoşbəxt və hüzurlu olacağını bilən isə onu yaradan Allahdır. Bu səbəbdən, insan üçün ən doğru və ən gözəl yol Allahın özünə göstərdiyi yoldur. Allah qulları üçün seçdiyi haqq yolu və dini isə son vəhyi olan Quranda bildirmişdir. Allah Quran üçün **"Bu, qətiyyən şübhə doğurmayan, müttəqilərə doğru yol göstərən bir Kitabdır". (Bəqərə surəsi, 2)** deyə bildirir.

Allah Özünü tanıtmaq, insanları, dünya həyatını və ölümü yaratma məqsədini bildirmək, axirətin, qiyamət gününün və hesab gününün varlığını xəbər vermək və insanlara məmnun olacağı gözəl əxlaqı izah etmək kimi daha bir çox hikmət ilə Quranı peyğəmbərimiz hz. Məhəmmədə vəhy etmişdir. Allah Qurandan əvvəl də bir çox peyğəmbərə vəhyini bildirmişdir. Ancaq bu ilahi kitablar zaman içində qismən təhrif edilmişlər. Quran isə son ilahi kitabdır və Allahın vədinə uyğun olaraq heç bir dəyişikliyə uğramamışdır. Quranın təhrif olunmaqdan qoruyacağını Allah bir ayəsində belə bildirir:

**Şübhəsiz ki, Zikri (Quranı) Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq. (Hicr surəsi, 9)**

İman edənlər Quranın Allah qatından olduğuna və insanlar üçün tək yol göstərici olduğuna qəti olaraq iman edərlər. Bunun bir çox dəlili vardır. Məsələn, Qurandakı bənzərsiz üslub və sahib olduğu üstün hikmət onun Allah qatından olduğunun çox açıq bir dəlilidir. Bununla yanaşı, Quran bir çox möcüzə ehtiva edir. Məsələn, Quranın endirildiyi dövrdə, yəni dövrümüzdən 1400 il əvvəl bilinməsi mümkün olmayan, hələ ötən əsrdə tapılmış bəzi elmi həqiqətlər Quranda bildirilir. (Ətraflı məlumat üçün baxın. Əlavə Bölüm 1: Quran Möcüzələri)

Quranda bəzi elmi həqiqətlərlə yanaşı gələcəklə bağlı xəbərlər də verilmişdir. Bu xəbərlərin tarixi dövr ərzində baş verməsi ilə Qurana aid bir çox möcüzə daha reallaşmışdır. (Ətraflı məlumat üçün baxın. Əlavə Bölüm 1: Quran Möcüzələri)

Quranın ən əhəmiyyətli xüsusiyyətlərindən bir başqası isə içində heç bir ziddiyyət olmamasıdır. Tarix boyunca dinə düşmən olan kəslər Qurana qərəzli düşüncə ilə yaxınlaşmış, öz dayaz məntiqi fikirləri ilə ziddiyyət tapa bilmək üçün böyük səy göstərmişlər. Halbuki, Allahın sözü olan Quranda tək bir ziddiyyət də yoxdur. Allah Quranın bu xüsusiyyətini bir ayəsində belə bildirir:

**Məgər onlar Quran barəsində düşünmürlərmi? Əgər o, Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ziddiyyət tapardılar. (Nisa surəsi, 82)**

## Quran doğrunu səhvdən ayıran bir rəhbərdir

Yer üzündə bir çox fikir, fəlsəfə və inanc vardır. Bunların bir çoxu həm bir çox batil və təhlükəli inanc, düşüncə və tətbiq, həm də qismən gözəl xüsusiyyətlərə malikdir. Məsələn, karma inancı əslində bir çox azğın və batil inancı özündə birləşdirir. Bir tərəfdən də insanların gözəl əxlaq içində yaşamalarını təşviq edən bəzi xüsusiyyətlərə sahibdir. Ancaq, nəyin həqiqətən yaxşı və nəyin həqiqətən pis olduğunu ayırmağın tək yolu Allahın bütün insanlığa tək rəhbər olaraq göndərdiyi Qurana baxmaqdır. Məsələn, bu kitab boyunca karma inancının bəzi xüsusiyyətləri izah edilmiş və bu xüsusiyyətlərin niyə doğru və ya səhv olduğu açıqlanmışdır. Bu izahlar verilərkən isə, tək ölçü və müraciət edilən qaynaq Quran ayələri olmuşdur. Məsələn, karmadakı reinkarnasiya inancı tənqid edilərkən Quran ayələri rəhbər olaraq götürülmüşdür. Çünki Allahın kitabından kənar qaynaqlar insan düşüncəsinin məhsullarıdır və mütləq doğru olmaları mümkün deyil. Tək mütləq doğru Allahın kitabıdır. Ondan kənar mənbələrə əsaslanaraq həyat quranlar yanlışa düşməkdən özlərini uzaq tuta bilməzlər.

Allah Quranın doğrunu səhvdən ayıran (Furqan) xüsusiyyəti üçün bir ayədə belə buyurur:

**Daha əvvəllər insanlara doğru yolu göstərən rəhbər olmaq üçün. Furqanı da O nazil etdi. Şübhəsiz ki, Allahın ayələrini inkar edənlər üçün şiddətli bir əzab vardır. Allah Qüdrətlidir, intiqam almağa qadirdir. (Ali İmran surəsi, 4)**

Quran insanları qurtuluşa aparan, onları ölümdən sonrakı sonsuz həyatları üçün xəbərdar edən, doğru yolu göstərən, Allahın razılığını, rəhmətini və cənnətini qazanmaq istəyənlər üçün rəhbər olan yeganə kitabdır. Quranda təbliğ edilən İslam dini isə Allahın insanlar üçün seçdiyi tək dindir. Allah bir ayəsində bu həqiqəti belə bildirir:

**İslamdan başqa bir din axtaran şəxsdən, o din heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar. (Ali İmran surəsi, 85)**

# NƏTİCƏ

Karma kimi inanclarda və ya bir çox şərq dinində haqq dinlərdən qalan bəzi xüsusiyyətlər var. Ancaq bu dinlər zaman içində adət və ənənələrin, atalarından qalma batil inancların qarışdırılması ilə xurafatlarla dolu inanclara çeviriliblər. Bir tərəfdən insanları gözəl əxlaqa və sülhə çağırarkən, bir tərəfdən də inəklərə sitayiş edilməsi, inəyə salam verilməsi, siçanları, meymunları müqəddəs sayılması kimi bir çox məntiqsiz inancı da özündə birləşdirir.

Bu səbəblə, sülh, sevgi, dostluq, hüzur kimi gözəl əxlaq xüsusiyyətlərini yaşamaq, bunların insanlar arasında yayılmasını təmin etmək istəyən və bu istəyində səmimi olan hər kəs Allaha və Allahın endirdiyi və insanlar üçün yol göstərici olaraq seçdiyi Qurana yönəlməlidir. İnsanların sıxıntı çəkdikləri, düzəltmək istədikləri hər şeyin tək həlli Quranda var. Allah hər insanı Öz seçdiyi dinə uyduğu təqdirdə xoşbəxt və hüzurlu olacaq şəkildə yaratmışdır:

**Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur. Allahın yaratdığını heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu bunu bilmir. (Rum surəsi, 30)**

# İSTİNADLAR


1- Prof. Dr. Günay Tümer, Prof. Dr. Abdurrahman Küçük, *Dinler Tarihi*, Yanvar nəşrləri, Ankara 1993, s.91-92

2- *Büyük Dinler ve Mezhepler Ansiklopedisi*, 1964, İstanbul, s. 52

3- Edward Washburn Hopkins, *The Religions of India*, Boston, 1995, s. 319

4- Dr. Ali İhsan Yitik, *Hint Kökenli Dinlerde Karma İnancının Tenasüh İnancıyla İlişkisi,* s.130-131

5- Prof. Dr. Günay Tümer, Prof. Dr. Abdurrahman Küçük, *Dinler Tarihi*, Yanvar nəşrləri, Ankara 1993, s. 163

6- http://hellfire.dusers.drexel.edu/~buddha/Buddhism/Concepts/Karma.htm

7- http://www.godandscience.org/apologetics/designss.html, Taken from *Big Bang Refined by Fire* by Dr. Hugh Ross, 1998. Reasons To Believe, Pasadena, CA.

8- http://royal.okanagan.bc.ca/mpidwirn/atmosphereandclimate/atmslayers.html; Michael Pidwirny, Atmospheric Layers, 1996.

9- http://www.tpub.com/weather3/4-27.htm

10- Carolyn Sheets, Robert Gardner, Samuel F. Howe; *General Science,* Allyn and Bacon Inc. Newton, Massachusetts, 1985, s. 305

11- *Webster's New Twentieth Century Dictionary*, 2. edition "Isostasy", New York, s. 975

12- Carolyn Sheets, Robert Gardner, Samuel F. Howe; *General Science*, Allyn and Bacon Inc. Newton, Massachusetts, 1985, s. 305

13- National Geographic Society, *Powers of Nature*, Washington D.C., 1978, s.12-13

14- http://www.2think.org/nothingness.html, Henning Genz – *Nothingness: The Science of Empty Space,* s. 205

15- Anthes, Richard A., John J. Cahir, Alistair B. Fraser, and Hans A. Panofsky, 1981, *The Atmosphere*, 3. edition, Columbus, Charles E. Merrill Publishing Company, s. 268-269; Millers, Albert; and Jack C. Thompson, 1975, *Elements of Meteorology*, 2. edition, Columbus, Charles E. Merrill Publishing Company, s. 141

16- Anthes, Richard A.; John J. Cahir; Alistair B. Fraser; and Hans A. Panofsky, 1981, *The Atmosphere*, s. 269; Millers, Albert; and Jack C. Thompson, 1975, *Elements of Meteorology*, s. 141-142

17- Davis, Richard A., Jr. 1972, *Principles of Oceanography*, Don Mills, Ontario, Addison-Wesley Publishing, s. 92-93

18- Elder, Danny; and John Pernetta, 1991, *Oceans*, London, Mitchell Beazley Publishers, s. 27

19- Gross, M. Grant; 1993, *Oceanography, a View of Earth*, 6. edition, Englewood Cliffs, Prentice-Hall Inc., s. 205

20- Seeley, Rod R.; Trent D. Stephens; and Philip Tate, 1996, *Essentials of Anatomy & Physiology*, 2. edition, St. Louis, Mosby-Year Book Inc., s. 211; Noback, Charles R.; N. L.

Strominger; and R. J. Demarest, 1991, *The Human Nervous System*, Introduction and Review, 4-cü nəşr, Philadelphia, Lea & Febiger , s. 410-411

21- Seeley, Rod R.; Trent D. Stephens; and Philip Tate, 1996, *Essentials of Anatomy & Physiology*, 2-ci nəşr, St. Louis, Mosby-Year Book Inc., s. 211

22- Moore, Keith L., E. Marshall Johnson, T. V. N. Persaud, Gerald C. Goeringer, Abdul-Majeed A. Zindani, and Mustafa A. Ahmed, 1992, *Human Development as Described in the Qur'an and Sunnah*, Makkah, Commission on Scientific Signs of the Qur'an and Sunnah, s. 36

23- Moore, *Developing Human*, 6-cı nəşr,1998.

24- Williams P., *Basic Human Embryology*, 3-cü nəşr, 1984, s. 64.

25- http://www.ridgesandfurrows.homestead.com/fingerprint.html

26- Warren Treadgold, *A History of the Byzantine State and Society*, Stanford University Press, 1997, s. 287-299.

27- Warren Treadgold, *A History of the Byzantine State and Society*, Stanford University Press, 1997, s. 287-299.

28- Walter Wreszinski, *Ägyptische Inschriften aus dem K.K. Hof Museum in Wien*, 1906, *J C Hinrichs' sche Buchhandlung*

29- (Hermann Ranke, *Die Ägyptischen Personennamen, Verzeichnis der Namen,* Verlag Von J.J. Augustin in Glückstadt, Band I,1935, Band II, 1952)

30- İsmail Yakıt, *Türk-İslam Kültüründe Ebced Hesabı Ve Tarih Düşürme*, s. 36

31- İsmail Yakıt, *Türk-İslam Kültüründe Ebced Hesabı Ve Tarih Düşürme*, s.56

32- Sidney Fox, Klaus Dose, *Molecular Evolution and The Origin of Life,* New York: Marcel Dekker, 1977, s. 2

33- Alexander I. Oparin, *Origin of Life,* (1936) New York, Dover Publications, 1953 (Reprint), s.196

34- "New Evidence on Evolution of Early Atmosphere and Life", *Bulletin of the American Meteorological Society,* c. 63, Noyabr 1982, s. 1328-1330

35- Stanley Miller, *Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules*, 1986, s. 7

36- Jeffrey Bada, *Earth*, Fevral 1998, s. 40

37- Leslie E. Orgel, *The Origin of Life on Earth*, Scientific American, c. 271, Oktyabr 1994, s. 78

38- Charles Darwin, *The Origin of Species: A Facsimile of the First Edition*, Harvard University Press, 1964, s. 189

39- Charles Darwin, *The Origin of Species: A Facsimile of the First Edition*, Harvard University Press, 1964, s. 184

40- (B. G. Ranganathan, *Origins?*, Pennsylvania: The Banner Of Truth Trust, 1988.

41- Charles Darwin, *The Origin of Species: A Facsimile of the First Edition*, Harvard University Press, 1964, s. 179

42- Derek A. Ager, *"The Nature of the Fossil Record"*, Proceedings of the British Geological Association, c. 87, 1976, s. 133

43- Douglas J. Futuyma, *Science on Trial*, New York: Pantheon Books, 1983. s. 197

44- Solly Zuckerman, *Beyond The Ivory Tower*, New York: Toplinger Publications, 1970, s. 75-94; Charles E. Oxnard, *"The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt"*, Nature, c. 258, s. 389

45- J. Rennie, *"Darwin's Current Bulldog: Ernst Mayr"*, Scientific American, Aralık 1992

46- Alan Walker, *Science*, c. 207, 1980, s. 1103; A. J. Kelso, *Physical Antropology*, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, s. 272

47- *Time*, Noyabr 1996

48- S. J. Gould, *Natural History*, c. 85, 1976, s. 30

49- Solly Zuckerman, *Beyond The Ivory Tower*, New York: Toplinger Publications, 1970, s. 19

50- Richard Lewontin, *"The Demon-Haunted World"*, The New York Review of Books, 9 Yanvar 1997, s. 28

51- Malcolm Muggeridge, *The End of Christendom*, Grand Rapids: Eerdmans, 1980, s.43

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

**Darvini məhv edən çətinliklər**

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez

bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz

vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

**Təkamülün xəyali mexanizmləri**

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

**Lamarkın təsiri**

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində

yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast

gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin “Növlərin mənşəyi”ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

"Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük". (Derek A. Ager, "The Nature of the Fossil Record", Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən “australopithecus” adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib”, - deyərək bunu qəbul edir. *(J. Rennie, “Darwin’s Current Bulldog: Ernst Mayr”, Scientific American, Aralık 1992)*

Təkamülçülər “*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz.

Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür”. *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin formulu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən

böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat

modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində

düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların

toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**